KAMRAN İMANOV

*"Don bəzəyər də, ifşa edər də"*

*(M.Servantes)*

# Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir

# və ya

# Digər xalqların siyasi tarixini, tarixi coğrafiyasını və mədəniyyətini özününküləşdirməklə hay-ermənі qədimliyinin qurulma cəhdləri

Bakı – 2017

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin
İdarə Heyətinin sədri.

**Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir. Bakı, 2017**

Bu kitab Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun 2016-2021-ci illərdə "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" və "Beynəlxalq Əqli Mülkiyyət Günü" münasibəti ilə keçirilən beynəlxalq tədbirlərdə etdiyi çıxışlar və apardığı araşdırmalar və materiallar əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2021**

# GİRİŞ SÖZÜ

Hörmətli dostlar, xanımlar və cənablar, rəsmi qonaqlar, millət vəkilləri, media nümayəndələri!

Bugünkü tədbir ÜƏMT-nin elan etdiyi 26 aprel "Beynəlxalq Əqli Mülkiyyət Günü"nə həsr olunmuş silsilə tədbirlərdən biridir və məqsədimiz qədim mətnlərə və klassik mənbələrə söykənərək hay-erməni saxtakarlıqlarını və uydurmalarını ifşa etməkdir. Ümidvaram ki, bu konfrans tarixi sübutlarla, elmi dəlillərlə və danılmaz faktlarla erməni mifomaniyasını ifşa etmək missiyasının davamıdır. Çünki erməniçilik "Azərbaycan mədəni ənənələrinin mənimsənilməsi erməni ənənəsi" ilə yanaşı, folklorun bir növünə - mif yaradıcılığına çox meyllidir. Ermənilərin bu meyli həqiqətən də "milli istedaddır", istər "böyük Ermənistan", istər "Cənubi Qafqazda erməni avtoxtonluğu" yaxud "böyük erməni mədəniyyəti", istərsə də "sivilizasiyanın erməni ilk ocağı" haqqında miflər, "erməni soyqırımı", yaxud Azərbaycanda ermənilərin hüquqlarının pozulması haqqında miflər olsun. Və əlbəttə ki, bu, Cənubi Qafqazın, ilk növbədə Azərbaycanın bütün mədəni irsinin "ağıllı ermənilər"dən başlandığı barədə mifdir.

Bu mifologiya "böyük torpaqlar" stereotipini və qonşulara qarşı ərazi iddialarını bir-birinə bağlayır, məhz bu mifologiya qonşuların mədəni irsinin mənimsənilməsinə "təbiilik" verir, hətta "legitimlik" gətirir. Nəhayət, məhz bu mifologiya erməni siyasətçilərinin, dövlət xadimlərinin, alimlərinin, hətta kütlənin əxlaqını təyin edir. Ermənilərin "müstəsnalığı" haqqında yaradılmış mif və xarici aləmə qarşı "əzabkeşlik" tezisindən irəli gələn ambisiya və iddialar erməni düşüncəsində təbii olan adilik rolunu hər cür aradan götürməyə çalışır, ermənilərin "xüsusi missiya"sının irəli sürülən stereotipi isə beynəlxalq hüququn müasir sülh quruculuğunun təməl daşı kimi tanınmasına mane olur.

Və şübhəsiz ki, sadalanan amillər müasir erməni identikliyini formalaşdırır.

Həqiqətən, hər bir fərd seçimi əsasında özünü müəyyən mədəni qrupa aid etmək hüququna malikdir və bununla da öz identikliyini (məxsusluğunu) etnik, dini, milli-vətəndaş və ya istənilən başqa bir qrupda müəyyən edir. Tutaq ki, identiklik "icma", "ölkə" və "dünya" qruplarında seçilir. "İcma" dedikdə biz sırf

etnik, yəni lokal, ərazi və ya mədəni məkana, "ölkə" dedikdə – milli və ya vətəndaş, "dünya" dedikdə isə bəşəriyyətə olan seçim məxsusluğunu nəzərdə tuturuq. Güclü mərkəzdənqaçma qüvvələri olduğu halda identiklik öncə lokal, icma, sonra ölkə, əks halda – öncə ölkə, sonra lokal xarakter daşıyır.

Neqativ sxem əsasında qurulan identiklik digərlərinin qrupunu inkar edir, öz seçimini onlara qarşı qoyur, qalanlarına yadellilər münasibəti bəsləyir və adətən digərlərinin qrupuna qarşı aqressiv çıxış edir. Misal üçün erməniçilik öz identiklik qrupunu digərlərinə qarşı müxalif nöqteyi-nəzərindən təsəvvür edərək, "müstəsnalığını", "xüsusiliyini" qabardaraq, nəticə etibarilə özünü "izolyasiya" edir və digərlərinə qarşı etnik təmizləməni tətbiq edir. Belə şəraitdə "icma" (etnik) göstəricisi yüksək olur.

Müsbət sxem əsasında qurulan identiklik digərlərinə düşmən baxışı yox, əksinə qruplar arası münasibətlərdə kompromis axtarışına, konsensusun tapılmasına yönəldilir. Bu vəziyyətdə isə "ölkə", "dünya" identiklik göstəriciləri yüksək olaraq, "icma" göstəricisini üstələyir. Və belə nümunə Azərbaycan xalqının tolerantlıq ənənəsidir. Multikultural cəmiyyətdə pozitiv sxemi ilə qurulan identiklik qalib gəlir və getdikcə milli-vətəndaş identikliyi etnik (icma) identikliyini üstələyir.

Həqiqətən, UNESCO-nun 76 ölkədə identikliklə bağlı keçirilən "World Values" sorğusundakı rəqəmlər əsasında bizim araşdırmalarımız göstərir ki, azərbaycanlıların multikultural, tolerant əlamətlərini təsdiqləyən çox aşağı səviyyədə olan "icma" (24%) və çox yüksək olan "dünya" (21%) identikləridir, mənzərəni tamamlayan yüksək "ölkə" identikliyidir (55%). Bu nə deməkdir? Ölkə, milli-vətəndaş identikliyi icma, lokal, etnik identikliyini qat-qat üstələyir. Bununla yanaşı, hakimiyyətin düzgün seçilmiş ümumbəşəri siyasəti əhali tərəfindən dəstəklənərək, yüksək "dünya" məxsusluğu identikliyi formalaşdırır. Bir sözlə, "biz fəxr edirik ki, Azərbaycanlıyıq".

O ki qaldı Ermənistana, onun "icma" – etnik identiklik göstəricisi çox yüksək olaraq 38%-dır, "dünya" identifikliyi isə yalnız 11%-dır. Nəticələri çıxartmaq çətin deyil.

Hörmətli dostlar!

Erməni miflərini saymaqla qurtarmaz. Onların hamısı məqsəd quruluşuna və praktiki təyinatına görə birləşərək, siyasi mifologiya kateqoriyasına aid olur. Erməni etnik aləminin mənzərəsinin bir hissəsi olan məhz bu mifologiya zahiri reallığın və burada cəmləşən əxlaq mexanizminin erməni etnosu tərəfindən qavranılması üsulunu müəyyən edir. Fikir verin. Bir neçə müasir politoloqların, o cümlədən S.B.Luryenin araşdırmalarına əsasən, digər xalqlardan fərqli olaraq, erməni siyasi düşüncəsinin xüsusiyyəti geosiyasi xarakter daşıyaraq, ermənilərin yaşadığı yerlər əsasında müəyyən coğrafi xəritə qurmaq və yaşadığı yerləri özləri üçün növbəti "Ermənistan" adlandırmaqdan ibarətdir.

Lakin erməniçilik mifomaniyası bununla bitmir. Erməniçiliyin sifarişi ilə muzdlu xarici müəlliflər tərəfindən yazılan çoxlu sayda "əsərlər" riyakarlığa əsaslanaraq, tarixi saxtalaşmaya yol açır, dərc olunan kitab və məqalələrə çevrilərək, dünyaya yalan toxumu səpir, beynəlxalq ictimai rəyi çaşdıraraq, uydurmaları qəbul etmək qarşısında qoyur. Doğrudan da hər şey kitabdan başlayır və hər şey kitabdadır. Ancaq yalan yayan kitablarda yox. Uydurmalar isə qəbul edilmədiyi halda "çox əzabkeş" xalqın millətçiləri təcavüz və terrora əl atırlar.

Tanınmış avstriyalı tarixçi Erik Fayql "Erməni mifomaniya" kitabında yazdığı kimi *"...Erməni terrorizminin kökləri tarixə yanlış baxımdan irəli gəlir... Müasir erməni terroristlərin unikallığı ondadır ki, tarix (daha doğrusu tarixə öz baxışı) onlar üçün yeganə bəraətdir"*. Odur ki, *"insanlıqdan uzaq əməllərə bəraət qazanmaq məqsədilə tarixin yenidən yazılması terrorçuluğun unikal xüsusiyyətidir"*. Bəli, bu həqiqətən belədir. Siyasi mifologiya və tarixi uydurmalar, digər xalqın torpaqlarına və mədəni irsinə iddialar, etnik təmizlənməyə və ksenofobiyaya çağırışlarla dolu kitablar nəinki mədəni mübadilənin, qarşılıqlı zənginləşmənin əksinə işləyir. Yalanla dolu kitablar savaş və terrora yol açır.

Bədnam qonşularımızın millətçi müəllifləri tərəfindən yazdığı kitablar bu qəbildəndir. Burada məşhur Lixtenberqin sözlərini xatırlatmaq istəyirəm: "*İnsanlar necədirlər, yazdığı kitablar da elədir*". Tarixin ermənisayağı

“yeniləşməsi” çoxlu “erməni yadelli nağıllarına”, maddi və qeyri-maddi irsimizlə bağlı saxtakarlıqlara və uydurmalara, xalqımıza məxsus olan və ermənilər tərəfindən özününküləşdirilən folklorumuza, mətbəximizə və musiqi alətlərimizə, xalçalarımıza, bir sözlə, erməni etnosunun əməyi, intellekti olmayan və mentallığına sığışmayan hər şeyə aiddir.

Hörmətli yığıncaq iştirakçıları!

Az sonra siz bir sıra maraqlı və yeni tarixi faktları işıqlandıran təqdimatla tanış olacaqsınız, o cümlədən mənim “Digər xalqların siyasi tarixini, tarixi coğrafiyasını və mədəniyyətini özününküləşdirməklə hay-erməni qədimliyinin qurulma cəhdləri”. Deməliyəm ki, hay-erməni tarixi saxtakarlıqlarını və uydurmalarını araşdırarkən, maraqlı hadisələr və faktlar üzə çıxır.

Belə ki, hay-erməni tarixşünaslığı e.ə. çox-çox uzağa, təxminən 2500-ci ilinə gedərək, “kəsilməz” hay-erməni dövlətçiliyi haqqında uydurmalar yayır. Bu qondarma hay-erməni çarlıqlarını mifoloji Hayk nəslinin əfsanəvi Haykazuni sülaləsindən başlayırlar. Sonra Artaksilər, Oron-tidlər, Kiçik Ərsaklar (Arşakuni) “çarlıqları” gəlir. Bizans və Sasani imperiyalarının bu qondarma çarlıqlar “zəncirvarisini” b.e. V əsrinədək ləğv edildikdən sonra isə meydana Mamikonlular çarlığı gəlir, hansı ki, Sasanilər tərəfindən VI əsrdən süquta düçar olunur, sonra isə IX-X ə. Baqratidlər “çarlığı” və bu “çarlığ”ın da sonunu Sasanilər qoyur. Və nəhayət, XI-XIV ə. Kilikiya (Rubenidlər) “çarlığı” peyda olunur və XIV ə. Mamlyuklar onu dağıdır.

Beləliklə, “minilliklərlə ənənəsi olan (kiçik fasilələr nəzərə alınmasa) hay-erməni uydurma dövlətçiliyi bitmiş olur” və hay-ermənilərin fikrincə, yalnız “500 il sonra bərpa olunmaqla müvəffəq olur”. Lakin bu “kəsilməz” dövlətçilik haqqında yazılar cəfəngiyatdır. Bunların bir qismi qədim mətnlər və mənbələrlə təsdiqlənməyən və ya onlara zidd olan fantaziyalar və absurdlar, digər qismi isə milliyyətcə hay-erməni olan və qərb armenistlərin yazılarındakı ifşaedici etiraflara əsasən, yalan və uydurmalara çevrilir. Belə ki, haylara heç bir aidiyyəti olmayan, xett mixi yazılarında “Az-zi” adlanan ölkə saxta yollarla hay yazarları tərəfindən “Hayasa” adına bürünür və sıxılır, tarixi fantom olan

Haykla uyğunlaşdırılır və təxminən e.ə. 2500-ci ildən başlayaraq, iki min illik "hay-erməni əfsanəvi tarixi dövlətçiliyi"ni təmsil edən Haykazuni sülaləsinə çevrilir. Və ya qədim mənbələrə əsasən, Əhəməni satrapı, milliyyətcə hay olmayan Artaksi, digər tərəfdən milliyyəti pers olan Əhəmənilərin satrapı və Selevkilərin strateqi (generalı) Oront yaratdıqları dövlətlər heç bir sübut olmadığı halda qondarma erməni çarlıqlarına, "armenlər" adlanan "Armeniya" əhalisi bugünkü hay-ermənilərə çevrilmiş olurlar. Üstəlik, qədim mənbələrdən burada aramey və pers dili işləndiyi halda bunlar vahid dildə (hay-erməni) danışan formalaşmış hay etnosu donuna geyindirilmiş olurlar.

Digər misal. Hay-erməni saxta yazılara görə, sakaprototürk kökündən gələn Böyük Ərsaklar – Parfiya tərəfindən yaradılan və Ərsakların qan qohumu olan və başında duran Kiçik Ərsaklar bəyliyi saxtakarlıqla qondarma hay-erməni Arşakuni dövlətinə çevrilir. Özü də 63-cü ildən 428-ci ilə qədər Kiçik Ərsaklar dövlətinin başında Böyük Ərsaklar kökündən olan Tiridatın nəsli durduğu halda bu şəxs və onun törəmələri aydın olmayan səbəbə görə hay-erməni çarı simasında təqdim olunurlar. Hətta mənşəcə Böyük Ərsaklardan olan Suren Anak oğlu xristianlığı Kappadokiyadan Kiçik Ərsaklara gətirdiyi və əsrlər boyu onun nəsli Armeniya (Arşakuni) katalikosları olduğu halda bunu hay-erməni "dövlətinin" ilk xristianlığı qəbul edən dövlətlərdən biri hesab etmək olarmı? Üstəlik, Kiçik Ərsaklar başçıları sülaləsindən və boyu kiçik olan birinin Xosrov Kotak (türkcə gödək) olduğu halda, onun hay-erməni adı varsa, niyə tarixdə qalmamışdır? Nəyə görə erməni müəllifi R.Sandalgianın yazdığı "Histoire documentaire de l'Armenie des ages du paganisme (1410 av.-3-5 apr. Y.C.)" (fransız dilində) – "Ermənistanın bütpərəst dövrünün sənədli tarixi (e.ə. 1410 – b.e. 305-ci illərdə)" yazdığı əsərində Armeniya ərazisində yaşayan xalqlar və nəsillər sırasında hay-ermənilərə yer tapılmır və əsasən Turan mənşəli əhalidən söhbət gedir və hansı səbəblərə görə tanınmış tarixçi F.Kırzıoğlunun qeydinə əsasən, *"...kitab əldə edildikdə onun nüsxələrini məhv etmişlər, biblioqrafiyada isə onun adını heç vaxt yada salmırlar"*? O da qeyd olunmalıdır ki, Arşakuni dövləti haqqında hay-erməni uydurmalara uyğun

olmayan həqiqətləri yazmış tanınmış erməni tarixçisi ABŞ Kolumbiya Universitetinin professoru N.Qarsoyan "Армения в IV в." / К вопросу об уточнении терминов "Армения", "Верность", "qədim erməni xronikalarını" (M.Xorenski, F.Buzand) ifşa etmiş və göstərmişdir ki, Ermənistanın 1500 illik müstəqilliyi olmamış, vahid, birləşmiş Armeniya yanlışdır, xristianlığın qəbul dövrü yalandır və Armeniyanın Cənubi Qafqazda olması saxtakarlıqdır. Bu səbəbdən həmin əsər Ermənistan EA nəşrinin səhifələrində çıxdığı günün səhəri məhv edilmişdi.

Nəhayət, sovet və postsovet dövründə elə bir rəsmi mənbə tapılmır ki, orada Kilikiya çarlığı hay-erməni dövləti kimi (1080-1375-ci illər) qələmə verilməsin (Ensiklopedik lüğətdən tutmuş uşaqlar üçün buraxılan kitablara qədər), özü də Səlcuqlardan qaçmış Rubenidlər sülaləsi başda olmaqla. Hətta film də çəkilmişdi - "7 песен об Армении". Lakin heç bir yerdə qeyd olunmur ki, bu feodal dövlət dağıldıqda hakimiyyəti alban sülaləsi Xetuvimlər ələ keçirərək, Gəncəli Girakosun məlumatına əsasən, bu dövləti süqut edənə qədər onu yaşatmışdılar və Xetum Patçiçin (alban tarixçisi) qeydinə görə, buradakı işlənilən dil – alban dili idi.

Təqdimatımda biz bu cəfəngiyatların bir neçəsini təfərrüatları ilə açıqlayacağıq.

Bu mənim hay-erməni saxtakarlıq ənənəsinə aid növbəti təqdimatımdır və burada hayların uydurma tarixi və coğrafiyasından söhbət açaraq, qeyd etməliyəm ki, istər hay-erməni xalqının kollektiv yaddaşında, istərsə də institusional (akademik və tədris) nəşrlərdə tarix və etnik-coğrafi yaşayış arealı mifoloji köklərə əsaslanır və digər, xüsusilə qonşu xalqların hüquqlarına xələl gətirir. Təbii ki, hər bir xalqın, o cümlədən hay-ermənilərin keçmişi mövcuddur, özünəməxsus tarixi vardır. Hətta tarixçilərinin, siyasətçilərinin cəfəngiyata, əfsanəvi uydurmalara və mifologemlərə üstünlük verdiyi halda, real tarixi saxta keçmişi ilə əvəz etdiyi kilsə sifarişləri ilə saxta tarixi nəşrlərin yazıldığı, redaktə edildiyi, kütləyə yayıldığı halda və nəhayət, bunlara inandığı, düşüncə tərzinə çevrildiyi halda da.

Dahi etnoloq A.Qumilyovun dediyi kimi, "*Tarix – səbəb-nəticə əlaqələrinin mürəkkəb zənciridir. Fərdi səviyyədə yalan (saxtaçılıq) qeyri-simmetrik (adekvat olmayan) davranış qaydası olmaqla yanaşı, etnik və landşaft mühitə olan təsir üsuludur. Populyasiya (kütlə) səviyyəsində isə yalan (saxtaçılıq) artıq sosial və mədəni mühitə təsiri göstərən antisistemlərin geniş miqyaslı dezinformasiyasıdır*". Tarixi yalanlara dahi alimin belə qiymət verməsinə baxmayaraq, şübhəsiz ki, qeyd edilənlər millətin, xalqın, etnosun daxili, sırf etnik çərçivədə həll olunan məsələdir, lakin bir şərtlə ki, belə uydurma siyasi tarix və tarixi coğrafiya digər xalqların keçmişinə yırtıcı yanaşmadan, təhrif və qarət edən saxtakarlıqdan uzaqdır, onların mənafelərinə toxunmur və onları alçaltmır.

Odur ki, xalqımızın maraqlarına zərər vuran erməniçilik saxtakarlıqları bir sıra kitab və nəşrlərdə ifşa olunur, o cümlədən bizim "Erməni yadelli nağılları" (2008), "Erməni tarixi uydurmalarının tarixinə giriş" (2011), "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ" (2013), "Öz-özünü təkzib edən "erməniçiliyin müəlliflik hüququ" (2015), "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir" (2016), "Моральный террор: против нематериального и материального культурного наследия" (2016), "Армянский геноцид" или "армянский террор" (2016), "Заметки о мультикультурализме" (2016), "Əqli mülkiyyət və insan hüquqları" (2015), "Fövqəladə hallar və əqli mülkiyyət hüquqları ilə qorunan mədəni dəyərlər" (2012).

- **Bəs həqiqi erməni tarixini nə cür səciyyələndirmək mümkündür?**

Buna cavab ən tutarlı elmi nəşrdə, F.Brokqauz və İ.Efron "Ensiklopedik lüğət"indəki, (c.1, S.p. 1800) yazıları bir daha təkrarlayaraq: *"Ermənistan bütövlükdə demək olar ki, heç bir vaxt, çox qısa müddət istisna olmaqla, bir dövlət kimi öz hökmdarı tərəfindən idarə olunmayıb... Ölkənin qədim tarixi demək olar ki, naməlumdur. Ölkənin ümumdünya daşqınından irəli gələn və Musa rəvayəti ilə bağlı şimal hissəsinin qədim "Ararat" adına heç bir mixi yazılarda və Herodotda rast gəlmək mümkün deyil. Qədim perslər bu ölkəni "Armina" adlandırırdılar. Bugünkü ermənilər tərəfindən isə işlənmiş tarix*

*qədim erməni milli abidələrinə əsaslanmır. Bu tarix İncildən götürülən hekayələrlə bağlıdır, bu isə onun daha sonrakı xristian dövrü mənşəyindən dələlət edir. Ermənilərin rəvayətlərinə görə, bu ölkə qədim dünya mərkəzi idi, burada dörd ən böyük çaylar – Firat, Dəclə, Kür və Araz axırmış, İncil və Assuriya mənbələrinə istinadən daşqından sonra bu ölkə yeni insan beşiyinə çevrilmişdir. Öz ulu babası kimi onlar Haykı, İncildə göstərilən Toqarmanın oğlunu nəzərdə tuturlar və bu səbəbə görə özlərini Hayklar, ölkələrini isə Hayastan adlandırırlar".*

Bu fikirləri bir sıra erməni tarixçiləri də etiraf edir və bunları da xatırlatmaq yerinə düşərdi.

*"Ermənilər başər tarixində heç zaman xüsusi rol oynamamışdılar. Bu siyasi termin yox, ayrı-ayrı erməni məskənlərinin səpələndiyi coğrafi vilayətin adıdır. Ermənilər həmişə yaşadığı torpaqların pis sahibləri olmuşlar, ancaq onlar çox məharətlə öz yaxınlarını sataraq güclülərə xidmət göstərmişlər...".*

K.Patkanov ("Ванские надписи и их значение для Передней Азии", 1875).

*"Ermənilərin keçmişi haqqında tarix və ya rəvayət kimi qəbul edilə biləcək heç bir məlumat yoxdur. Onlar xristianlığı qəbul etdikdən sonra Ayk və Nuhla qohumluğu uydurmuşlar. Belə qəbul olunub ki, o, Yafətin nəvəsi, Nuhun oğlu olan Torqomun nəslindəndir. Çünki, əski tarixçilərdən bir neçəsi yəhudi salnamələrdə xatırlanan Torqom adına Ermənistanın bir hissəsi, ailə, nəsil, Torqom milləti kimi göstərmişlər...".*

Qaraqaşyan ("History of Oriental İssue", London, 1905).

*"İlkin erməni sülaləsi tarixi şəxsiyyətlərdən yox, uydurulmuş nağıllardan götürülən şəxslərdən ibarətdir..."*

Aykazyan, "L'histoire de l'Arménie", Paris, 1919.

Hay-erməni tarix yazarların işləri ilə tanış olaraq, qarşımızdakı istəyimizdən asılı olmayaraq, bir sualla rastlaşırıq: nə etməli, əgər tarix "hay" etnosu haqqında heç bir iz qoymayıb, ancaq tarixçiliyə aid hay iddiaları aşıb-daşmaqdadır?

Saxtakarlığa arxalanaraq, iki imkan hay tarixşünaslığı tərəfindən məharətlə istifadə olunub.

Birincisi, xristianlığın müqəddəs kitabı – İncilə dəyişikliklər və əlavələr edərək, "xalqlar cədvəlini" təftiş edərək, virtual Hayk və onun uydurma Armen və s. xələflərini yaratmaq, süni surətdə qohumluğa soxularaq, məşhur xalqlarla digər tarixçiliyə malik olan xalqların nüfuzundan istifadə etmək.

İkincisi, tarixçiliyi ilə məşhurlaşan qədim dillərdəki tarixi hekayələri, rəvayətləri və əfsanələri hay dilinə tərcümə edərək və bu tərcümələrə endoetnonim Haykı əlavə edərək, hay-erməni dilində özününküləşmiş mifologemlər yaratmaq.

- Xalqların (millətlərin) tarixi adətən yaşadıqları ərazi ilə sıx bağlıdır: odur ki, "Azərbaycan tarixi" və ya "Gürcüstan tarixi" yazıldıqda, təbii olaraq, yaşadığı areal ilə birgə müvafiq millətin tarixi də ehtiva edilir. Lakin hay-ermənilər öz yaşadıqları ərazini bir neçə anlayış, tərif vasitəsilə ifadə edirlər, bununla da hay-erməni tarixi-etnik ərazisi, faktiki olaraq, virtual anlayış qismində çıxış edir və bu ərazinin lokallaşdırılması siyasi konyukturaya əsasən, "lazım olan" və ya qonşularına ərazi iddialarına əsasən, "mümkün olan" yerdə məskunlaşdırılır.

- Erməni xalqının müəyyən mənada "klassik", ənənəvi yaranma və tarixi konsepsiyasının banisi tanınmış prof. İ.Dyakonovdur ("Предыстория армянского народа", Yerevan, 1968 və sonrakı əsərləri) və bu konsepsiyaya əsasən, haylar Qəmərlilər dalğası sayəsində ata yurdu Avropanın Balkanlardakı tarixi Frakiya diyarından Kiçik Asiyaya miqrasiya edərək, Van gölü ətrafında ikinci "vətəndə" yerləşmişlər. Qərbdən Şərqə doğru miqrasiyanın sonu isə Qafqaza gətirib və bu torpaqları da özününküləşdirən hay-ermənilər özlərinə Qafqaz avtoxton donu geydirmək üçün istənilən addımı atmağa hazırdılar. Lakin "avtoxtonlar" olduğu halda tarixi-etnik "Ermənistan tarixi"ni deyil, V əsrdən M.Xorenskinin qoyduğu ənənəyə əsasən, hay-erməni xalqının tarixini yazırlar (bax: М.Хоренский "История хайев" ч.1, под ред. Б.Н.Аракеляна и А.Р.Иоаннисяна, Ер., 1951; В.А.Парсамян "История армянского народа", кн.1, Ер. 1972; "История армянского народа. С древнейших времен до

наших дней", под ред. проф. М.Г.Нерсисяна, Ер., 1980; Г.Х.Саркисян, К.С.Худавердян, К.Н.Юзбашян "Потомки Хайка və s.

- Hay-ermənilərin yazdıqları tarix avtoxton xalqın tarixi olmur, bunu avtoxtonlar yazmırlar, alloxton, miqrant xalqın tarixidir, miqrantlar tərəfindən yazılmış tarixdir. Biz bunu imkan olduqca mütləq qeyd edirik (bax: "Erməni yadelli nağılları", Bakı, 2008 və s.) və həqiqətən, armenistlərin yazı ənənəsini qoyan "erməni tarixinin atası" M.Xorenski V və ya VII əsrlərdə, bəlkə də XIV əsrdə (əslində müəlliflik və yazı tarixi sual altında qalır) yazdığı "Патмутюн Хайоц" ("Hayların tarixi"), "İncili" təftiş, "Xalqlar cədvəli"nə Hayk, Armenak və s. fantomları daxil edərək, hay etnosunun Sakalara, Qəmərlilərə qohumluğunu çatdıraraq, hətta Torqom (Toqarma) əcdadlarına (türk soy-kökü) çevirərək, 5 Armeniya (1-4 və yunan) iddiasını irəli sürmüşdü. İki əsr sonra isə A.Şirakatsi öz "Aşxaratsuyts"unda ("Coğrafiya") yenə də anonim deyil, müəllif kimi artıq 8 Armeniya vermişdi, indi isə "Armeniya"ların sayı 35-ə çatıb.
- Elə erməni alimlərin etirafına əsasən, ermənilər hazırda etno-konfessional cəhətdən fərqlənən 11 subetnik qruplar təşkil edir və əlavə edim ki, bu qədər "Ermənistan" olduğu halda, hansı "Ermənistanın tarixi"ndən söhbət gedəcək? Odur ki, avtoxton xalqlardan fərqli olaraq, erməni alimləri "Ermənilərin tarixi"ni, bir sözlə, etnosun tarixini yazmaq məcburiyyəti qarşısındadırlar, ya da "Hayastan" adlı ölkəsi olmayan mifoloji Hayların tarixini yazırlar və burada digər xalqların ərazisindən və tarixindən söhbət açırlar.
- Şübhəsiz, Armeniyaların çoxluğu və yazılan hay-erməni xalqının tarixləri siyasi aspektdən daim sönməz ərazi iddialarından xəbər verir, lakin bir məsələ kəskinləşmiş qalır, təkrarən deyirik: Armeniyalar sırasından hansı Armeniyanın tarixini yazasan? Armenistlər bundan vaz keçir, erməni yazarları Armeniyaların çoxluğuna əsaslanaraq, Aralıq, Qara və Xəzər dənizləri arasındakı "Böyük Ermənistan" xülyasını yaşatmağa çalışırlar, bu mifologem ayrı-ayrı, parça-parça olan uydurma Armeniyaları yeni bir uydurma "kompleksinə" çevirməyə dəstək verərək, buraya Türkiyə, Gürcüstan və Şimal-Cənubi Azərbaycan torpaqlarını daxil etmiş olur.

Hörmətli konfrans iştirakçıları!

1 mln. ev sahibi doğma torpaqlardan qovulduqdan sonra Ermənistanın işğal etdiyi ərazilərdə 13 dünya əhəmiyyətli (o cümlədən 6 memarlıq və 7 arxeoloji), 292 milli əhəmiyyətli (o cümlədən 119 memarlıq, 173 arxeoloji), həmçinin 330 yerli əhəmiyyətli abidə dağıdılmış və ya istifadəyə yararsız hala salınmışdır. 804 qəbiristanlıq və 10 məscid talan və təhqir edilmişdir, daxilində 40 min eksponat sərgilənən 22 muzey və 4 rəsm qalereyası barbarcasına dağıdılmış və xaraba qoyulmuşdur, 927 kitabxana (4,6 mln. nüsxə və qiymətsiz əlyazmalar məhv edilmişdir).

Bu vəhşilik və vandallığın kökü yuxarıda qeyd etdiyim səbəblərdən qaynaqlanır, multikulturalizm əvəzinə bir mədəniyyətin şişirdirmiş “müstəsnalığından” irəli gəlir, digərlərinin mədəni irsinə və əqli mülkiyyətinə oğurluq və düşmən baxışından yararlanır.

Zəbt olunmuş torpaqların boşaldılması ilə bağlı beynəlxalq qərarlara məhəl qoymayan işğalçı dövlət sülhü istəmir, yaranan vəziyyəti imkan çərçivəsində uzatmaq istəyir və təəssüflər olsun ki, bu hərəkətinə qərar verən beynəlxalq strukturlar tərəfindən heç bir təzyiqlə qarşılaşmır.

Dövlət başçımızın dediyi kimi, “Ölkəmizin ərazi bütövlüyü başqa ölkələrin ərazi bütövlüyündən az əhəmiyyət daşımır. Əgər Qərb dünyası postsovet məkanında münaqişələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edirsə, bizim münaqişə də öz həllini bu prinsiplər üzərində tapmalıdır. Amma bizə gəldikdə görürsünüz ki, münasibət fərqlidir. Bu, riyakarlıqdır, ikili standartlardır, ədalətsizlikdir”.

Bəli, bu riyakarlıq və ikili standartlar işğalçı dövlətə dolayısı yolla dəstəkdir.

Lakin cənab Prezident İlham Əliyevin Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbiçilərlə görüşündəki nitqindən olan sözləri xatırlatmaq yerinə düşərdi: “*Bu gün Azərbaycan xalqı vahid amal ətrafında birləşib – ölkəmizi daha da gücləndirməliyik, müstəqilliyimizi daha da möhkəmləndirməliyik, ordumuzun gücünü daha da artırmalıyıq ki, öz ərazi bütövlüyümüzü bərpa edək. Mən əminəm ki, biz buna nail olacağıq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu*

*xalqımız bu torpaqda yaşayıb, yaradıb, qurub, tikib. Biz Dağlıq Qarabağ bölgəsinin tarixini yaxşı bilirik. İndi XIX əsrdə ermənilərin oraya necə köçürülməsi barədə çox gözəl elmi əsərlər, kitablar yazılır. Hətta XX əsrin əvvəllərində çar Rusiyasında dərc edilmiş xəritələrə baxmaq kifayətdir görək ki, nəinki Dağlıq Qarabağda, indiki Ermənistan Respublikasında da əksər toponimlər Azərbaycan mənşəlidir. O da sirr deyil və bunu artıq beynəlxalq aləm də bilir ki, indiki Ermənistan da tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan, Zəngəzur, Göyçə mahalları bizim tarixi torpağımızdır. Biz ədalətsizlik, böyük dövlətlərin siyasəti nəticəsində bu torpaqlardan məhrum olduq. Əlbəttə, biz bu tarixi bilməliyik. Bilməliyik ki, qondarma "Dağlıq Qarabağ qurumu"nun heç bir gələcəyi yoxdur. Biz başqa ölkələrin torpağına iddiaçı deyilik. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verməyəcəyik…".*

# I. HAY-ERMƏNİ UYDURMALARININ TARİXİNƏ VƏ COĞRAFİ-XRONOLOJİ MƏRHƏLƏLƏRİNƏ RETROSPEKTİV BAXIŞ

Hay-erməni institusional (akademik nəşrlər və dərsliklər) tarixi ədəbiyyatına retrospektiv baxış onu göstərir ki, erməni tarixi mifinin yaradılması dörd inkişaf mərhələsindən keçmiş və bu mərhələlərdən heç biri qısaca "miqrantlardan avtoxtonlara doğru" adlandırılan düsturdan kənara çıxmamışdır. Bu fikir tanınmış alim V.A.Şnirelmana məxsusdur ("Войны памяти", ИКЦ Академкнига, М., 2003) və həmin mütəxəssisin dəqiqliklə qeyd etdiyi kimi, "Ermənisanda mif və siyasət bir-birinə sıx bağlanaraq, bu və ya digər formada "miqrantlıqdan avtoxtonluğa doğru" şüarına çevrilir. Hay-erməni tarixşünaslığının keçdiyi mərhələlərin formalaşması daimi və müvəqqəti siyasi amillərlə bağlıdır. Daimi amillər – öz siyasi tələblərini uydurulmuş "qədim tarix"ə istinad etməklə və dövlətçilik ənənəsinin olmadığı (qısa müddətli dövr istisna olmaqla) şəraitdə digər tarixi və müasir ölkələrin dövlətçiliyini özününküləşdirib, onlara qarşı ərazi iddialarını irəli sürməkdən ibarətdir. Müvəqqəti amil isə cari siyasi konyuktura ilə əlaqəlidir.

Nəticə etibarı ilə daha əvvəl ifadə edilmiş mifologiyaya əsasən, tarixi saxtalaşdırmalar aşağıdakılara xidmət edir:

- Kiçik Asiyanın avtoxton,
- Sonradan ilk arilərin vətəni olan Ermənistanı qafqazlı olmayan hay ermənilərin Balkandan miqrant olan, eyni zamanda Anadolunun avtoxton xalqına çevrilməsinə,
- Daha sonra Anadolunun, Cənubi Qafqazın avtoxton millətinə,
- Və nəhayət, Hind-Avropa xalqlarının beşiyinə, ilk xristian ölkəsinə və "Böyük Armeniya" ərazisinin mədəni irsinin sahibinə gətirib çıxarmaq məqsədinə.

Yəni **ilk öncə:** hay-erməniləri Kiçik Asiyanın avtoxtonlarına çevirir, onların Anadolu mənşəli olduğunu sübut və hay-erməniləri hind-avropa sivilizasiyasının ilk mənbələrinə aid etməyə çalışır.

**Daha ətraflı olaraq:**

**1-ci mərhələ** – XIX əsrin sonlarını və XX əsrin əvvəllərini (Sovet dövründən öncəki) əhatə edir. Bu mərhələnin əsas tezisləri: "İlkin hind-avropa sivilizasiyası hay-ermənilər tərəfindən yaradılıb, arilərin (hind-avropalıların) ata yurdu Kiçik Asiyada yerləşib və Van gölü ətrafındakı ilk dövlətçilik də ermənilər tərəfindən yaradılıb. Ermənilər friq mənşəli deyil, erməni platosu ari qəbilələrinin beşiyi olub və məhz elə oradan onlar dalğa-dalğa qərbə və şərqə köç ediblər; Xett və Nairi-Urartu mədəniyyəti hay-ermənilərin irsidir və nəhayət, hay-ermənilər Qafqaz kökənli deyil.

**Bu yanaşmanın müəllifləri bunlar idi:** Ter-Qreqor (1897), Qabrielian (1918), Aslan (1920), Sandalgian (1917). Bu müəlliflərin nəticələri əslində hay-erməniləri qafqazlılara qarşı qoyaraq, ermənilərin Türkiyə torpaqlarına iddialarını əsaslandırmaq məqsədini daşıyırdı.

**2-ci mərhələ** – Sovet hakimiyyətinin ilk illərindən 1940-cı illərə qədər dövrü və erməni və xarici tarixçilərin araşdırmalarını əhatə edir. Bu dövr ərzində erməni tarixçiləri hind-avropa mənşəli hayların əcdadlarını Balkan yarımadasına bağlamağa cəhd göstərir və bunun üçün miqrasiya konsepsiyasını işləyir. Bununla belə, erməni Sovet tarixçiləri ehtiyatla "Ermənistanı" Ermənistan SSR-nin coğrafi çərçivəsində yerləşdirir, Qarabağın erkən tarixini isə yerli alban əhalisinin erməniləşməsi və erməni müstəmləkələşdirməsi kimi göstərir. Bu versiyanın müəllifləri Boryan (1928) və Arakelyandır (1938).

"Miqrasiya Konsepsiyası"nın davamı kimi hay-erməni alimləri hay-ermənilərin etnogenez məsələlərini irəli sürür. O dövrdə ortaya belə bir versiya atılmışdır ki, guya "haylar Balkanlardan frak-frigiyalılarla birgə köç etmişlər və eyni zamanda Hayasa (yerli qəbilələrin Azzi adlandırdığı və mərkəzi Hayasa olduğu) ərazinin əzəli sakinləri olmuşlar".

Beləliklə, bir tərəfdən "hay" və "armin" terminlərinin bir məxrəcə gətirilməsi təmin olunurdu, digər tərəfdən hay-ermənilərə heç bir aidiyyəti olmayan, uydurma adlı Hayasa ölkəsi ad oxşarlığına görə erməni tarixçilərinin

ilk qurbanına çevrilirdi. Lakin erməni xalqının yaranması və tarixi ilə bağlı klassik əsərlərin tanınmış müəllifi İ.Dyakonov qeyd edirdi ki, "Hayasa" və "Armina" terminlərinin əsasını yalnız hay-erməni mənşəyinə bağlamaq böyük bir yanlışlıqdır.

**E.ə. I minilliyin əvvəlində Ön Asiyanın sxematik xəritəsi (e.ə. IX–VII ə.)**



*Mənbə: İ.M.Dyakonov "Предыстория армянского народа", Erm. SSR EA nəşriyyatı, Yerevan, 1968, səh.180*

**Qədim Kiçik Asiya və Cənubi Qafqaz**




Mənbə: *M.D.Buxarin, İ.A.Ladınin, B.S.Lyapustin, A.A.Nemirovskiy «Qədim Şərqin tarixi»*

Bununla yanaşı, Urartunun, xetlərin və hurrilərin tarixini mənimsəyərək, saxtakarlar özləri uydurduğu hay-erməni dövlətçiliyinin tarixini bürünc eraya, Behistun yazılarından öncəyə, keçirib, uydurma dövlətçiliklərini Urartudan əvvəlki dövrə sırımağa cəhd göstərirlər. Bundan sonra elan olunur ki, Friq qəbilə birləşmələrinin başında hay-ermənilər dururdu və məhz onların e.ə. VIII əsrdə Urartu dövlətinə "ölümcül zərbə vurdular" və bu torpaqların hökmdarları oldular. **Bu konsepsiyaların müəllifləri:** Manandyan (1943), xüsusən Qr.Kapansyan (1947 г., "Хайаса – колыбель армян").

Bu müəlliflərin saxtakarlıqları Anadolu ərazisinə iddiaları gücləndirilməsi və Cənubi Qafqaz torpaqlarına iddiaların hazırlanması kimi siyasi məqsədlər daşıyırdı.

**3-cü mərhələ** 1980-ci illərə qədərki zaman kəsiyini əhatə edir və Ermənistana repatriantların idxal etdiyi millətçilik meyllərin güclənməsi ilə səciyyələnir. Nəticə etibarı ilə bu meyllər ona gətirib çıxardı ki, hay-erməni tarixi daha miqyaslı konturlar çizməyə başladı. V.A.Şnirelmanın yazdığına görə, erməni tarixçiləri Cənubi Qafqaz da daxil olmaqla, bütün dağlıq Ermənistanı əhatə edən prosesləri göstərməyə cəhd edirdilər. Erməni xalqının formalaşması istiqamətində hay-erməni tarixçiləri aparıcı rolu Hayasa qəbilə birləşməsinə həvalə etmişdilər. Qeyd edilirdi ki, başqa ərazilərdən fərqli olaraq, Hayasa Urartunun fəth edə bilmədiyi müstəqilliyini saxlamağı bacaran yeganə ölkə olmuşdur. Hay-erməni tarixçilər indiki Ermənistan Respublikası ərazisində ilk erməni dövləti qismində e.ə. 316-cı ildə Kürün orta axın sahəsində yaradılan Ayrarat çarlığının adını çəkirlər. Bu çarlığın hökmdarı Ervantidlər (Orontidlər) sülaləsindən idi, o sülalənin ki, onlar hələ e.ə. 401-400-cü illərdə Ksenofonta bəlli idilər və Əhəməni imperiyasının 18 satrapiyasını idarə edirdilər (Arakelyan, İonnisyan, 1951, səh. 32). Beləliklə, Ermənistan respublikası şöhrətli keçmişə malik olurdu və bu şöhrət yerli ermənilərə özlərini bu ərazilərin həqiqi köklü xalqı kimi hiss etməyə imkan yaradırdı".

**Urartu e.ə. IX-VI ə.**




Mənbə: *https://az.wikipedia.org/wiki/Urartu#/media/File:13-Urartu-9-6mta.gif*

**Urartu e.ə. IX-VII ə. (İşpuini yürüşü)**




Mənbə: *https://www.proza.ru/2009/06/09/886*

**Midiya dövləti (e.ə. 625-585-ci illər)**




Mənbə: http://afg-hist.ucoz.ru/photo/maps/istoricheskie/midija/83-0-1914

**Midiya dövləti (e.ə. 550-330-cu illər)**




Mənbə: http://sastha-knowyourledge.blogspot.com/2011/04/10-greatest-empires-in-history-of-world.html

**Şərqdə Hindistandan, qərbdə Yunanıstana qədər uzanan qədim pers Əhəməni İmperiyasının xəritəsi**



Mənbə: *http://www.mapsmaps.ru/nogeografic/istoricheskie-karty/karta-imperii-axemenidov.html*

**Əhəməni İmperiyasının xəritəsi, e.ə. VI ə. sonu**




Mənbə: *«Qədim Dünya Tarixi» kitabındakı xəritənin əsasında hazırlanmışdır, 2-ci c. "Qədim cəmiyyətlərin inkişafı"; 3 cilddə, II nəşr / İ.M.Dyakonov, V.D.Neronova, İ.S.Svencickiyin red. ilə - M.: «Elm» nəşriyyatı, 1983. Generic Mapping Tools, GIMP və Inkscape köməyilə yaradılmışdır. ETOPO1 NGDC yüksəkliklərinin verilənləri istifadə olunub (http://www.ngdc.noaa.gov/mgg/global/global.html)*

**Makedoniyalı İsgəndərin imperiyası**




*Mənbə: Tarixi xəritə və illüstrasiyalar, http://jhist.org/maps/maked03.htm*

Bu yanaşmanın təşəbbüskarları hay-ermənilərin uydurma dövlətçiliyini Sələvkilərin vilayəti ilə əlaqələndirib, guya Artaşeslər (əslində Artaksilər) sülaləsi tərəfindən "yaradılan" "Böyük Ermənistan" adlandırılar və II Tiqranın (e.ə. 95-55-ci illər) bu virtual hay dövlətinə "qazandırdığı" "şöhrət"ə arxalanırlar. Bu azmış kimi, saxtakarlar bu "dövlətin" hüdudlarını genişləndirərək, Kür-Araz çayarası ərazidə yerləşən Utik və Ərsak / Arsax torpaqlarını ora daxil edirlər. V.A.Şnirelman yazır ki, müəlliflər (erməni tarixçiləri) "*Strabona istinadən qeyd edirdilər ki, bu ərazinin bütün sakinləri yalnız erməni dilində danışırdılar*" (Arakelyan, İonnisyan "Erməni xalqının tarixi", 1951-ci il, II cild, səh. 35, 38).

Xüsusilə qeyd edilməlidir ki, erməni müəllifləri Arşakid dövlətini (Kiçik Ərsaklar) Roma və Persiyaya qarşı duran müstəqil dövlət kimi təsvir edirdilər, lakin Qafqaz Albaniyasına gəlincə, V.A.Şnirelmanın qeydinə əsasən, susmaqla Qafqazın yanlış mənzərəsini tərtib etmiş olurdular.

**Sələvkilər dövləti**




Mənbə: *https://ru.wikipedia.org/wiki*

Bu sırada xüsusi yeri S.T.Yeremyanın əsərləri tutur: bir tərəfdən "hay-erməni" etnogenezinə yeni yanaşmaya əsasən, digər tərəfdən isə bu müəllifin "düzəltdiyi" xəritələr silsiləsi ilə, o cümlədən uydurma "Böyük Ermənistan" xəritəsi (S.T.Yeremyan, 1952) başda olmaqla, hansılar ki, tədris məqsədilə 1951-ci ildən olan Arakelyan və İonisyan dərsliyi ilə qoşma təşkil etmişdilər.

## S.T.Yeremyanın hay-erməni tarixi və etnogenezi.

Bu müəllifin əsas, ana xətti Hayasaya əsaslanan və frigiyalılardan imtina edən hay-avtoxtonizm Konsepsiyası idi və bununla da muşk tayfaları gürcülərin əcdadlarına çevrilirdi. Hayasalıların dili Hind-Avropa dili kimi qəbul edilirdi və nəticədə belə alınırdı ki, hind-avropalılar uzaq keçmişdən başlayaraq, Kiçik Asiyanın sakinləri idi. Hind-avropalı Hayasa dilinin təsiri altında Urartuların dili də Hind-Avropalaşmış qəbul edilirdi. Hay-erməni etnogenezi prosesinə "irandilli skiflər" də cəlb edilərək, ilk erməni dövlətlər sırasına başında mənşəyi sak olan Paruyr Arme-Şupriya daxil edilmişdi (e.ə. VII əsr). Əslində bu qondarma dövlətlə yanaşı, qonşuluqda bir dənə də hay-erməni Armina adlı Ervanduni dövləti uydurulurdu, özü də həmin dövlətdə hakim sülalə erməni-midiyalı sülaləsi kimi qəbul edilirdi. Midiya bir dövlət kimi tarixi səhnədən götürülərək, əvəzinə Urartu dövlətinin varisi kimi uydurma Armina verilirdi. Yeremyan göstərməyə çalışırdı ki, Ervantidlər sülaləsinin kökləri Midiya və fars sülalələrinin çıxdığı Matienadandır. Urartu dövlətinin sonuncu çarı Rusa olaraq, ondan sonrakılar isə Arminanın hay-erməni çarları idi. Üstəlik, Assiriya və Urartunun süqut etməsi hay-ermənilər başda duran erməni-fars-midiyalı ittifaqının qələbələrinin nəticəsidir. Bir "incə" məqam da, Yeremyana görə, o idi ki, Van gölü ətrafındakı ərazinin hay-ermənilərin əlinə keçməsi Artaşes vaxtı – e.ə. II ə. yox, ondan qat-qat öncə e.ə. VI ə. aid edilirdi.

Bir sözlə, belə çıxırdı ki, haylar Erməni yaylasındakı şərtsiz avtoxtonlar idi və hay-erməni etnogenezi e.ə. II-I ə. tamamlanmış idi və həmin zaman hay-erməni dilli mifik "böyük Armeniya" qurulmuşdu (S.T.Yeremyan, 1951-52-ci illər). Sonrakı 1958-80-ci illərdə Yeremyan erməni dilindəki əsərlərində

konsepsiyasına çoxlu əlavələr və dəyişikliklər etmiş, belə ki, Armina yunanlar və farslar tərəfindən Armeniya, akkadlar tərəfindən Urartu, o da Ararat kimi yəhudi mətnlərindən götürülə bilər, bir sözlə, Armini = Armeniya = Urartu = Ararat (S.T.Yeremyan, 1968-ci il). Hayasa-Azzi (e.ə. XV-XIII ə.) – "ilk Armeniya", ("tarixi" Kiçik Armeniya ərazisi, Ərzrumdan qərb istiqamətdə) Yeremyana əsasən, "protoarmyan" adlandırılan muşkların torpaqları olaraq, həmin qəbilə Kiçik Asiyanın mərkəzi rayonlarından gələn və adı bəlli olmayan qəbilələrlə e.ə. 1165-ci illərdə cənubi-şərqə çəkilərək, Sofena və Arzapena torpaqlarına yerləşərək, burada "Muşklar çarlığı" – Arme / Urme yaratdılar, sonralar Xurro-urartlarla qarışmağa başladılar və nəticədə gəlmələr Urartu dövlətinin əhalisini assimilyasiya etdirdilər. Bununla da bir tərəfdən hay-erməni etnosu yarandı, digər tərəfdən isə e.ə. VII-VI ə. hay-ermənilər midiyalılarla birgə Urartunu dağıdaraq hakimiyyətə erməni sülaləsini gətirdilər.

Bu konsepsiyadan hansı nəticələr çıxarılmalıdır?

**Birincisi**, saxta tezislərin təsdiqi məqsədilə Yeremyan digər qonşu xalqların tarixini təhrif edərək, alçaltmışdır və heç bir əsası olmayaraq, hay genezisində "hayas" və "muşk" nəzəriyyələri barışdırılaraq, hay-erməni avtoxtonluğu irəli sürülmüşdür (İ.Dyakonovun tənqidindən qaçmaq məqsədilə).

**İkincisi**, erməni dövlətçilik ənənəsi süni surətdə qədimləşdirilərək, e.ə. VII ə. gətirilmişdir.

**Üçüncüsü**, Armeniyanın mərkəzi zorla da olsa, hal-hazırda ölkə ərazisinə yaxınlaşdırılmışdır.

Sonrakı əsərlərində Yeremyan uydurma fikirlərini daha da "təxminləşdirərək", yazırdı ki, ermənilər haqqında ilk tarixi məlumatları e.ə. III-II minilliklərdə tapmaq mümkündür, hətta proto-hay-erməni dilinin formalaşması e.ə. V-IV minilliklərə aiddir və həmin zaman erməni yaylasında nümunəsi ermənilər olan avropalı irqinin antropoloji tipi əmələ gəlmişdi.

**Bir sözlə**, armenoidlər və protoerməni dili e.ə. V minillikdə artıq mövcud idi.

Beləliklə, göründüyü kimi, erməni tarixi mifologiyası bu üç mərhələ nəticəsində öz "inkişafında" aşağıdakı mərhələlərdən keçmişdir:

- Qafqazdakı Qafqaz dünyasına qarşı qoyulan qeyri-avtoxtonluq;
- "Armen" simasında Balkandan gəlmə və eyni zamanda "hayas" simasında Anadolunun avtoxtonluğu;
- Anadolu və eyni zamanda Cənubi Qafqaz avtoxtonluğu.

Erməni tarixi mifinin söylədiyimiz hər üç mərhələsi siyasətləşmiş və qarşıda duran konyuktur siyasi vəzifələrdən əmələ gəlmişdir.

**4-cü mərhələ** (son sovet və postsovet dövrünü əhatə edir).

Bu dövrlər əvvəllər uydurulmuş tarixi konstruksiyalarının xüsusi "təkmilləşdirilməsi"nə əsaslanan erməni tarixi mifinin "çiçəkləndiyi" və dünya tarixşünaslığında hay-ermənilərin əhəmiyyətinin marginallaşdırılma səviyyəsinin daha da dərinləşməsi uydurma dövrüdür və bu dövr üzərində nisbətən geniş dayanmaq məcburiyyətindəyik, çünki həmin dövr Azərbaycan xalqına qarşı təcavüz vaxtını əhatə edir.

"Ermənistan haqqında 7 mahnı" əsərinin müəllifi Q.Eminin bədii-tarixi əsərlərindən başlayaraq getdikcə hay tarixşünaslığında daha çox fikir formalaşdırılırdı ki, proto hay-ermənilər hələ Urartuya qədər Kiçik Asiyada olmuşlar, **Urartu isə hay-erməni dövlətçiliyinin mahiyyətini təşkil edir, onun sakinləri olan Nairililər isə hay-erməni olmuşlar (Q.Emin, 1967-1979)**.

Tarixşünaslıqda ermənilərin hayasların törəmələri kimi SSR ərazisində Urartunun guya ilk dövlətçiliyinin yaradıcıları olması barədə fikir artıq şübhə altına alınmırdı (Aslanyan və b., 1965-ci il). Buradaca erməni-hay dövlətçiliyinin "qüdrətli xarakteri" və onun guya Xetlərlə toqquşmaları öz əksini tapmışdır. Qeyd edilirdi ki, erməni dövlətçiliyi "arme" tayfalarının hökmranlığı altında yarandığı tarixdən başlayaraq "hayk" etnoniminin daşıyıcısı olmuşdur (Xaçaturyan, 1976-cı il). Özü də Urartu dövlətinin adının "Ararat" adı ilə dəyişdirilməsinə və beləliklə bu anlayışların eyniləşdirilməsinə xüsusi əhəmiyyət verilmişdir (Katvalyan, 1980-ci il).

Belə çıxırdı ki, əlifba, təqvim, dəmir və təkər "Qədim Ermənistanın" yaradılmasının nəticəsidir. Səbəbi də Ermənistan = Urartu = Nairi = Hayasa

anlayışlarının bir-birinə bərabər olması idi (S.Ayvazyan, 1962, 1963, 1967-ci illər), ona görə ki, Urartu Van gölü rayonunda yerləşmiş elə həmin dövlətdir ki, onu xetlər "Hayasa", assiriyalılar "Nairi", perslər "Armina", yunanlar isə "Armenia" adlandırmışlar.

**Beləliklə**, bu dövrün "tədqiqatları" nəinki Urartunun erməniləşdirilməsinə qulluq edirdi, eləcə də onunla bağlı olan hər şeyi hay-ermənilərə bağlamaqla bu dövlətçiliyin faktiki olaraq ləğv edilməsinə yönəldilmişdir. Qafqaz dilləri qrupuna daxil olan Urartu dilini ləğv etmək üçün isə hə-min dil erməni dili elan edilmişdir.

Bir halda ki, tarixi əsərlərdə Urartu dövlətçiliyinə yer tapılmamışdır, onda Kiçik Asiyada yeganə dövlətçiliyin hay-ermənilərə məxsus olması elan olunmuş və onun sərhədləri Misirə, Çinə və Hindistana qədər uzadılmışdır (S.Ayvazyan, İşxanyan, 1969-cu il).

Qeyd etmək lazımdır ki, qəribə də olsa yeni "kəşflər" kimi təqdim olunan bütün bu sayıqlamalar SSRİ EA-nın Rəyasət Heyətinin qərarı ilə Moskvada çap olunmuşdu, yəqin bir də ona görə ki, Kiçik Asiya Hind-Avropalıların qədim vətəni və əlbəttə ki, hay-ermənilər onların bizim günlərimizə qədər yaşayıb çatmış yeganə nümayəndələri elan edilmişdilər. Üstəlik, aydın olmuşdur ki, guya hay-ermənilər nəinki dəmirin sirrini gətirmişlər və "ieroqlifik yazının" yaradıcıları olmuşlar, onlar həm də qədim Misiri zəbt edən "giksos-hayksoslar" olmuşlar.

Həmin dövrün erməni tarixşünaslığında Urartunun "ləğv edilməsi" ilə paralel olaraq, Hayasanın torpaqları Qafqaz Albaniyasının ərazisinə, Azərbaycana köçürülməyə başlanmışdır.

Öz "tarixi kəşflərinin" ikrah doğurmasına baxmayaraq, S.Ayvazyan inadla onlara arxeoloji dəstək tapmağa çalışırdı və ... onu Metsamordakı b.e.ə. XX əsrə aid edilmiş ieroqlifik yazılarda və astronomik işarələrdə "tapmış" oldu (sonradan akademik B.B.Piotrvski ərəb yazısını "hay yazısı", monqol dövrünə aid sikkəni isə "hay sikkəsi" kimi qələmə vermiş S.Ayvazyanın saxtakarlığını ifşa etdi, lakin KİV-lər S.Ayvazyanın yalanını o qədər şişirtdilər ki, kütləvi şüur S.Ayvazyanın saxtakarlığına hələ də inanmaqda davam edirdi). Bu sıraya

Qarabağ və bütövlükdə Azərbaycan torpaqlarının hay-ermənilərin qədim məskəni olması da daxil idi və bu uydurma sonradan inkişaf etdirildi.

S.Ayvazyanın ideyaları bu geoloqun elmi ictimaiyyət tərəfindən daha çox qəbul edilməyən "nailiyyətlərini" "təmizləməyə" və erməni-hayların urartulularla eyniləşdirilməsini "əsaslandırmağa" cəhd göstərən Ermənistan EA-nın bir sıra tarixçiləri tərəfindən əldə bayraq edildi. O cümlədən, V.N.Xaçatryan sübut edirdi ki, Hayasa Ermənistan yaylasında ən güclü dövlət birliyi olmuşdur və Ararat vadisini, yəni indiki Ermənistanın ərazisini öz tərkibinə daxil etmişdir. Guya Hayasa Xet çarlığının rəqibi olmuşdur və onun əhalisi qədimdən hind-avropalı idi (S.Xaçatryan, 1973-cü il) və bunun üçün bu ərazidə hind-avropa toponimikası "tapılmışdır" (İ.Dyakonova görə belə bir şey mövcud olmamışdır). Hayasanı daha sonrakı "Nairi ölkəsinin ittifaqı" ilə bərabərləşdirərək, b.e.ə IX əsrə doğru isə sonuncuları çar Armenin hakimiyyəti altında urartulular və şubarlarla (subarlar) birləşdirərək, iddia olunmuşdur ki, bu uydurulmuş ittifaqda titul milləti nairililər – hayaslar təşkil etmişlər. Məhz onlar Urartu elitasına, onun dilinə və hakimiyyətdə əsas qüvvə olmasına qarşı çıxmış və nəticədə onları assimilyasiya etməyə müvəffəq olmuşlar. Beləliklə, "hayasalar – nairililər – urartulular – subareylər" genetik zəncir əsasında öz qədim Hind-Avropa dilli hay-erməni xalqı (Xaçatryan, 1972, 1976, 1980-ci illər) və b.e.ə. 681-ci ilə doğru "Ermənistan" özü meydana gəlmişdir. Qeyd etmək vacibdir ki, "hay" və "arme" terminlərinin qarşılıqlı əvəzlənməsinə cəhd edərək, Xaçatryan, öncə isə Yeremyan kimi hesab edirdilər ki, bu yeni dövlətin başçısı Sak Paruyr olmuş, əvvəllərdən "hayk" adını daşıyan "Arme" tayfası isə hakim mövqe tutmuşdur.

**Beləliklə,**

**guya hayaslar və onların törəmələri – hay-ermənilər minilliklər boyu Ermənistan yaylasında yaşamışlar və bu müddəa ərzində də sabit dilə malik olmuşlar.**

**Hələ üstəlik, e.ə. II minilliyin ortalarına doğru meydana gəlmiş erməni dövlətçiliyi "sübut olunmuş" olurdu** (İ.Dyakonova görə, bu "nəzəriyyə" XX əsrin apokrifi oldu).

**Digər tarixçi M.A.Katvalyan artıq erməniləşdirilmiş Urartunun mərkəzini Van gölündən şimala doğru "sürüşdürməyə", yəni onu "Ararat ölkəsinə" gətirməyə nail oldu** (Ararat sözünün Urartudan yox, əksinə Urartunun Araratdan yaranması barədə uydurmanı istifadə edərək) və "sübut etdi" ki, "erməni xalqı e.ə. VI əsrdə formalaşmışdır və Urartu dövləti hay-erməni xalqından ibarət olmuşdur" (Katvalyan, 1980-ci il).

Xaçatryanın ideyalarına əsaslanan A.Mnasakyanın əsərləri isə Urartunun dövlət elitasına aid hissəni "düzəltməyə" xidmət edirdi. İndi Urartu nəinki erməniləşdirilmiş urartululardan ibarət idi, həm də azsaylı Urartu əyanları ölkəni hay-erməni canişinləri vasitəsi ilə idarə edirdilər. **Bununla hayların nəinki etnik, həm də siyasi cəhətdən Urartuda hökmran olması göstərilirdi**. Guya məhz Urartu erməni dövləti olduğuna görə, Assuriya onun qarşısında gücsüz idi (Mnasakyan, 1981).

Bununla yanaşı, "Böyük Ermənistan" adı ilə Qarabağı və digər məxsus olmayan torpaqların Arşakuni dövlətinə aid edilməsini dərsliklərə və ensiklopediyalara salınması başlandı (Eremyan, 1981, Arutyunyan, 1987), ermənilərin etnogenezi erməni dilinin yaranmasından başlanır, onun guya 5 minillik tarixi var və bu dil hind-avropalılardan xüsusi seçilən müstəqil dildir iddiası irəli sürüldü (R.İşxanyan, 1988), hay-ermənilərin Sevan gölünün ətrafında və Qarabağda Urartu dövründən öncə məskən salması (A.Petrosyan, 1987) iddiaları da irəli sürülmüşdür.

R.A.İşxanyanın "yaradıcılığından" söz açaraq, qeyd etməliyik ki, Urartunun "məhv edilməsinə" və Azərbaycan torpaqlarının mənimsənilməsinə yeni "töhfə" olan bu kitab çapı tarix üzrə mütəxəssis, Qarabağ hərəkatının ideoloqlarından biri, filoloq R.A.İşxanyan tərəfindən verilmişdir. Hind-avropalıların ilk qədim vətəninin kiçik Asiya olması barədə ideyanı inkişaf etdirərək, "sübut edə bildi ki", hay-ermənilər e.ə. IV minillikdən başlayaraq, Hind-Avropa birliyinin dağılmasına qədər (e.ə. IV minillik) müstəqil etnos kimi

Erməni yaylasında yaşamışlar (İşxanyan, 1979, 1980, 1981-ci illər). Hay-ermənilərin yaranma tarixini isə bu müəllif erməni-hay dilinə 5 minillik tarix verərək onun yaranma tarixindən götürmüşdür. Bu cür ideyanın əsas məğzi onunla bağlıdır ki, həm qədim dövrlərdə, həm orta əsrlərdə, həm də indi erməni dilində danışanların hamısı elə hay-ermənilərdir. Özü də bu konstruksiyaya əsasən, həmin dövrlər **e.ə. IV minilliyə gedib çatdığına görə hay-ermənilər ən qədim dünya xalqlarından biri elan edilirdilər, e.ə. III minilliyin ikinci yarısından başlayaraq isə hətta onları Mesopotamiyanın hökmdarları olan akkadlar da tanıyırdılar**. Müəllif "Urartu mirajından" imtina edərək, qeyd edirdi ki, e.ə. IX-VII əsrlərdə Urartu yox, "Erməni Van çarlığı mövcud olmuşdur" (İşxanyan, 1988-ci il).

Balkanlardan Kiçik Asiyaya köç etmiş friq-frakiyalılardan (bununla birlikdə həm də muşklardan) avtoxton yerli əhalinin – qədim ermənilərin xeyrinə imtina az sonra O.Qaragözyan tərəfindən edilmişdir. O hesab edirdi ki, qədim erməni tayfalarının ittifaqı həm genetik, həm də linqvistik cəhətdən erməni yaylasının avtoxtonları olmuşlar, gəlmələr haqqındakılar isə yalnız mif olmuşdur. O, Urartu və Hayasadan imtina edərək, e.ə. IX-VII əsrlərdə Çorox çayından başlayaraq, Kür çayının sağ sahilinə qədər erməni yaylasının bütün şimalını özündə birləşdirən Etiunu dövlətini "düzüb qoşdu" (Qaragözyan, 1988-ci il). Bu müəllifin əsas tezislərindən biri də "prahindavropalılar – protoermənilərdir" şəklində səsləndirilmişdir.

**"Daşnaksutyun" partiyasının gələcək liderlərindən biri olan arxeoloq B.E.Oqanesyan Azərbaycan torpaqlarına iddialarını "əsaslandıraraq", e.ə. II minilliyin birinci yarısının Trialet mədəniyyətini Hind-Avropa mədəniyyəti elan etdi və hind-avropalıların Kür və Araz hövzələrinə erməni yaylasının qərbindən miqrasiya etməsi versiyasını irəli sürdü** (Oqanesyan, 1988-ci il). Onun həmkarı Q.Areşyan isə "sübut etdi" ki, hind-arilər Kür və Araz hövzələrində e.ə. III minilliyin sonundan başlayaraq yaşamışlar (Areşyan, 1992-ci il), A.Petrosyan isə hind-avropa dövrünü e.ə. II minilliyin başlanğıcına qədər "dərinləşdirdi" (Petrosyan, 1987-ci il).

Beləliklə, hay-ermənilərin Anadolu və Cənubi Qafqaz avtoxtonluğu bir daha “əsaslandırıldı”.

**Bunun nəticəsi isə nəinki regionun mövcud olmayan bir sıra ölkələrinin tarixi keçmişinin məhv edilməsi, eləcə də hazırda regionda mövcud olan dövlətlərə ərazi iddialarının tarixi cəhətdən aktuallaşması oldu**. Bununla yanaşı, hay-erməni opusları qədim Kiçik Asiyadakı Hind-Avropa vətənini əsaslandıraraq, “qədim Hind-avropalılar” termini altında müstəsna olaraq “qədim erməniləri” (haylar) nəzərdə tutmuşlar və iddia edirdilər ki, onların “yaşı” dilləri ilə birlikdə 5 min ildən az deyildir.

**Sadaladığımız “tədqiqatların” çoxunun populizm və emosionallığı**, bu baxışlardakı tənqiddən uzaqlıq, bəsitlik və əsassız ehtimallar, bu müəlliflərin sırasında akademik nüfuzlu müəlliflərin çox vaxt olmamasına baxmayaraq, bütün hallarda erməni identikliyinin tələblərini və ictimai gözləntilərini daha yaxşı məmnun edirdi.

Hay-erməni bu dövrün “araşdırmalarına” müəyyən mənada yekun vurmalı idi və vuruldu.

**1988-ci ildə Yerevanda aparıcı erməni mütəxəssisləri akademiklər B.Arakelyan, Q.Caukyan və Q.Sarkisyanın müəllifliyi altında adında əvvəldən məzmunu açıq-aşkar görünən “Urartu-Ermənistan” adlı fundamental monoqrafiya buraxıldı**.

Sadalanan erməni müəlliflərini öncə diletantlıqda, qeyri-peşəkarlıqda günahlandıran bu akademik əsərdə nə qədər təəccüb doğurmasa da bir sıra məsələlərə diletant adlandırılanların xeyrinə iddialar əks etdirdilər.

Belə ki, bu institusional məhsulda hay-erməni etnogenezində Hayasanın əhəmiyyəti təsdiqlənmiş oldu, erməni yaylasında yerləşən ilk dövlət Urartu öz süqutuna yaxın artıq erməniləşdirilmiş qəbul edilirdi və nəhayət, “Ermənistan ərazisində ilk və yeganə yaranan və hazırda qalan xalq kimi erməni xalqının olması” təsdiqlənirdi.

Əgər bu sıraya öncə xəritələrlə buraxılmış və öz əksini tapmış dərsliklərdə və elmi ensiklopediyalarda Yeremyanın (1981), Arutyunyanın (1987), “əsərlərini” də qatsaq, hansılar ki, Qarabağ torpaqlarını və Qafqazın digər

regionlarını "Böyük Ermənistan" adı altında Arşakuni (Kiçik Ərsaklar) dövlətinin tərkibinə daxil etmişdilər, o zaman mənzərəni tamamlamaq üçün Sarkisyanın (1991) hay-ermənilərinin Cənubi Qafqazda və Urartuda "ilkin sivilizasiya beşiyi" və Tonakanyanın (1989) və bədnam Z.Balayanın (1981) hayların astronomiyanın banisi və ilkin ocağı "olduğu" əsərlərindəki fikirləri də əlavə etməliyik. Deməli, hay-erməni son dövrün araşdırmalarının ana xətti aşağıdakılardan ibarət olmuşdur:

- Ermənistan – sivilizasiya beşiyi, Kiçik Asiyanın tarixi isə ermənilərin tarixi deməkdir, "Urartu" "termininin" erməni çarlığı adı ilə əvəz edilməsi, bununla yanaşı "əzabkeş" xalqın dünyaya bilik beşiyi kimi təqdim edil-məsi və nəhayət, ərazi iddialarının "qanuniliyi" və "legitimliyi" "əzabkeş" xalqın hüququ kimi təsvir edilməsidir.

Bu hissənin sonunda hay-erməni fantaziyaların "tarixşünaslıqdakı zirvə nailiyyəti" kimi, S.Ayvazyanın "История России: армянский след" (M., 2001, 1997, erm.) kitabını göstərməliyik. Burada köhnə uydurmalarla yanaşı, yeni "kəşflər" də nəzərə çarpır, o cümlədən rus-erməni ata yurdu Ararat guşəsi, Gürcüstanın əhalisinin ruslardan ibarət olması və onların hay-ermənilərlə birgə yazı və təqvimin icad edilməsi, "birgə məhsula" Haykın və Mitanni dövlətinin aid edilməsi və s. Təbii ki, hay-ermənilərin təklikdə yaratdığı "nailiyyətlər" də unudulmamışdır. Belə ki, Aramın qüdrətli imperiyasının yaradılması və bunun sübutu kimi hay-ermənilərin Xəzər, Qara və Aralıq dənizləri arasında yerləşməsini "isbat" edən XVIII ə. saxta xəritəsi, bu sıraya e.ə. 2107-ci ildən başlayaraq, fasiləsiz "erməni çarlar sülaləsi", rus knyazlarının, Atropatın erməni olması, 33-cü ildə Ermənistanda xristianlığın qəbul edilməsi, Böyük Tiqranın İspaniyadan Hindistana qədər Erməni dövləti və Makedoniyalı İsgəndərin məğlub edilməsi və s. uydurmalar daxil edilməlidir.

**Bir sözlə, dünya unutmamalıdır ki, "ermənilər sivilizasiyalı dünyanın uni-kal fenomenidir və bəşəri mədəniyyətin bütün nailiyyətləri Ermənistandan gəlir".**

## Nəticələr

Hay-erməni tarixşünaslığının mərhələlərinə gətirilən retrospektiv təhlil məntiqə sığışmayan hay-erməni uydurmaları, xəstə beyin fantaziyaları və absurdları istisna olmaqla, qarşımızda bir neçə nəticələr və vəzifələr əldə etmək imkanlarını yaradır:

**Birincisi**, qədim mətnlərdə və klassik mənbələrdə bir sıra xalqların yaşayış məkanı kimi əks olunmuş "Armeniya" anlayışının düşünülmüş halda "Haylar ölkəsi – Hayastana" qarışdırılması və saxtalaşdırılmış süni sinonimlik vasitəsilə anlayışlara aid siyasi, etnik və digər nöqteyi-nəzərdən olan tarixinin uyğunlaşdırılması, həmçinin qədim diyarın tarixinin hay-ermənilərin xeyrinə özününküləşdirilməsi erməni tarixşünaslığının başlıca tezisinin ifşa edilməsidir.

**İkincisi**, Cənubi Qafqaz torpaqlarında hay-erməni avtoxtonluğuna aid və qədim mətnlərə və klassik mənbələrə istinadən Cənubi Qafqaz ərazisində hökmran olan "erməni çarlıqları" adlanan ölkələrin siyasi, etnik və dövlətçilik baxımından mahiyyətini açıqlayaraq, saxtakarlıqları rədd etməkdir.

**Üçüncüsü**, qədim mətnlər və klassik mənbələr əsasında "əsrlərdən gələn və 2,5 min il tarixi olan" kəsilməz hay-erməni dövlətçiliyi ənənəsini uydurma kimi göstərməkdir.

## II. "ARMENİYA / ARMİNİYA" TARİXİ CƏHƏTDƏN NƏ DEMƏKDİR VƏ BURADA ƏHALİ HANSI DİLDƏ DANIŞMIŞDIR?

**1.** İlk növbədə e.ə. V əsrinə müraciət edək və bu dövrün ən məşhur tarixçisi və sərkərdəsi Ksenofonun "Kirin Anabasisi" tanınmış əsərinin rus dilinə tərcüməsi ilə tanış olaq [Ksenofon, "Anabasis", tərcümə, giriş məqaləsi və şərhlər M.İ.Maksimovanındır].





ΞΕΝΟΦΩΝΤΟΣ
ΚΥΡΟΥ ΑΝΑΒΑΣΙΣ.
XENOPHONTIS
CYRI EXPEDITIO.
EX RECENSIONE, ET CUM NOTIS
THOMÆ HUTCHINSON, A. M.
EDITIO PRIORIBUS PRÆSTANTIOR:
CUM
INDICE GRÆCITATIS ZEUNIANO,
AUCTO, ET NOTIS VOCALIUM QUANTITATEM INDICANTIBUS
ADORNATO.
LONDINI:
LONGMAN, REES, ET SOC.; BALDWIN ET CRADOCK; J. DUNCAN; J. BOOKER;
HAMILTON ET SOC.; E. WILLIAMS; WHITTAKER, TREACHER, ET SOC.;
R. PRIESTLEY;
OLIVER ET BOYD; ET STIRLING ET KENNY, EDINBURGI.
1831.


КСЕНОФОНТ
АНАБАСИС
ПЕРЕВОД,
СТАТЬЯ И ПРИМЕЧАНИЯ
М.И. МАКСИМОВОЙ
ПОД РЕДАКЦИЕЙ
АКАДЕМИКА И.И.ТОЛСТОГО
ИЗДАТЕЛЬСТВО АКАДЕМИИ НАУК СССР
МОСКВА-ЛЕНИНГРАД
1 9 5 1

**III kitab, IV fəsil (17)**:

Burada Ksenofon söyləyir ki, ellinlərin fikrinə görə bunlar karduxların yaşadığı dağlar ərazisinə daxil olaraq və

"*пройдя эту область, они придут в* ***Армению****, страну обширную и богатую,* ***которой правил Оронт***".

**Onminlərin keçdiyi yol**

E.ə. IV ə. bölgədən keçən Ksenofonun izlədiyi yol



**Kitab IV, fəsil III (3, 4)**:

Ksenofon yazır ki, *"...sabaha yaxın onlar çayın o biri tərəfində ehtimal ki, keçidə mane olmaq üçün hazırlaşan silahlı atlı və ellinlərin Armeniyaya girməsinin qarşısını almaq üçün atlılardan daha yüksəkdə, təpənin üstündə sıralanmış piyada qoşunlarını gördülər. Onlar Orontun və Artuxun muzdlu dəstələri – armenlər, mardlar və xaldeylər idi"*.

M.İ.Maksimova öz şərhlərində qeyd edir ki, o dövrdə (hadisələrin baş verdiyi zaman kəsiyində) karduxların yaşadığı ərazilər cənubda dağlıq Kürdüstanın Dəclə çayına bitişik olan hissəsi ilə, şimaldan isə Dəclə çayının qolu olan Kentritin (indi Boxtan) axını üzrə Armeniya ilə həmsərhəd idilər. Qəbilə birləşmələrinə xas olan həyat tərzi sürdüklərinə baxmayaraq, karduxlar *"özlərinin müstəqilliyini qorumaq üçün birlikdə hərəkət edirdilər və perslər onları tabe edə bilmirdilər (bax: mətn III, V, 16), lakin qonşuluqda məskunlaşan satrap bəzən karduklarla müqavilə bağlayır, barışçıl münasibətlər saxlayırdı..."*. *"Strabonun vaxtında (e. I ə.) özlərini qordieya adlandıran karduxlar..."*. *"Ellinizm dövründə onlar armenlərə (armenlər – Armeniya sakinləridir), nəticə etibarı ilə isə romalılara tabe olmağa məcbur qaldırlar* (Strabon XVI, ı 24)".


ROUTE AND PARASANGS IN XENOPHON'S ANABASIS
1. To the N of the Araxes at Kağızman
2. To the N of the Araxes at Karakurt
3. To the N of the Araxes near Pasinler
Map 6: Possible points of transit to the north of the Araxes
Greek, Roman, and Byzantine Studies 54 (2014) 220–254


Persian royal road
Caravan routes
Present-day borders
Route of the Ten Thousand
Probable route
Euxine Sea
Trapezus
Rizaion
Bathys Limen
Gonia-Apsaros
Phasis
Tiflis
Gymnias (Gyumri)
Yerevan
Kars
Araxes R.
Erzurum
Muş
Bitlis
Cizre
Tigris R.
Amida (Diyarbakır)
Malatya
Elazığ
Erzincan
Van
Map 2: The Retreat of the Ten Thousand based on Diodorus

M.İ.Maksimova şərhində aydınlıq gətirərək yazır ki, Kirin ellin muzdluları kardukların torpaqlarından sonra

“***вновь вступают на территорию, подвластную персидскому царю, и навстречу им снов выходит персидское войско под начальством сатрапа, то была Восточная Армения – персидская сатрапия, которой управлял зять Артаксекса Оронт***”

(Bu mətndə diqqəti cəlb edən “şərq – восточная” sözüdür və bu sözün, eynilə də “западная – qərb” sözünün dövlətçilikdən söhbət getmədiyinə görə kiçik hərflə yazılmasıdır).

Bundan sonra M.İ.Maksimova şərh edərkən yazır ki, qərbi Armeniya Ərzurumdan cənubda yuxarı Firatın iki qolu arasında yerləşən məkandır və

“***армянами назывался союз племен, обитавших в восточной и западной Армении”, которые “впоследствии распространились дальше на восток, объединившись с племенами, живущими за озерами Ван и Урмия, и образовали Армянское царство***”.

Yuxarıda gətirilən Ksenofonun “Anabasis” mətnindən və M.İ.Maksimovanın şərhindən hansı nəticələr əldə etmək mümkündür?

**Birincisi**, Armeniyanın hökmdarı Oront Pers imperiyasının satrapıdır (inzibati bölgü vahidinin başçısıdır), özü də pers kökənlidir, şərq (восточная) Armeniyanın ərazisi pers çarının tabeçiliyindədir, halbuki karduklar və onların torpaqları müstəqildir.

**İkincisi**, Armeniya satrapı Orontun qoşununda armenlər (армены) mardlar və xaldeylər kimi muzdlular sırasındadır, yəni qoşun pers qoşunudur və qoşuna muzdlular əlavə olunur.

**Üçüncüsü**, Armenlər (армены) hay-ermənilər yox, Armeniya sakinləridir və qəbilələr ittifaqını təşkil edirlər.

Bu nəticələrdən yekun isə ondan ibarətdir ki, hakim sülaləsi – Orontidlər pers satraplarının sülaləsidir, Armeniya hay-erməni tədqiqatçılarının səyləri

nəticəsində heç də müasir anlamda olan Armeniya deyil, üstəlik də onun hay-ermənilərin dövlət təsisatı kimi qələmə verilməsi saxtakarlıqdır, bura yalnız və yalnız pers satrapiyasının ərazi adıdır və nəhayət, armenlər (армены) heç də erməni tarixşünaslığının təqdim etdiyi indiki hay-ermənilər ola bilməz, bunlar muzdlu qaydada Orontun pers qoşununda iştirak edən və qəbilə birləşmələrindən olan Armeniya ərazisinin sakinləridir.

**Əhəməni İmperiyasının satrapları**




Mənbə: *https://ru.wikipedia.org/wiki*

**IV kitab, IV fəsil (3, 4)**:

Burada Ksenofon yazır ki, Kirin muzdluları – ellinlər qərbi Armeniyaya daxil olurlar və buranın hökmdarı Tiribaz idi,

*"друг царя, в его присутствии никто другой не помогал царю при посадке на коня"*.

və hansı ki, öz növbəsində ellinlərin irəliləməyinə mane olmalı idi.

Bundan sonra Ksenofon ellinlər tərəfindən əsir götürülmüş bir şəxs haqqında bəhs edərək,

*"вооруженного персидским луком, колчаном и секиром, подобной секирам амазонок"*

ondan soruşanda "sən kimsən", cavab alır ki, o Tiribaz düşərgəsindən olan "pers"dir və ellinləri maraqlandıran suallarından elə çıxır ki,

*"Тирибаз со своим войском и наемниками халибами и таохами» ... «готовится напасть на эллинов при перевале через горы"*.

**IV kitab, V fəsil**:

Burada Ksenofon qərbi Armeniyanın kəndlərindən birində ellinlərin və adi kənd adamları ilə söhbətləri haqqında bəhs edir. Kənd qızlarının və su daşıyan qadınların ellinlərə yönəlmiş sorğuya ki, ellinlər kimdilər, bunlara tərcüməçi pers dilində cavab verir. Kənd qızları ellinləri komarxın (kəndxudanın) yanına gətirəndə yenə də tərcüməçi pers dilində ünsiyyət yaradır və

*"после взаимных приветствий... через говорившего по-персидски переводчика"*

ellinlər müəyyən edirlər ki, bu ölkə Armeniyadır. Şərhlərində M.İ.Maksimova göstərir ki, Firatın cənub qolu olan indiki Muratsudan sonra

*"начиналась область западной Армении, составлявшей по административному делению Дария 13-ю сатрапию Персидского царства (Геродот, III, 93). Правителем ее был уже не Оронт..., а другой сатрап – Тирибаз"*.

M.İ.Maksimova qeyd edir ki, *"Комарх [староста], будучи проводником эллинов, по-видимому, намеренно повел войско не на север к морю, через страну халибов, а еще дальше на восток к верхнему Араксу"*.

Yalanın açılması və komarxın qaçmasından sonra ellinlər hələ 7 gün bələdçisiz həmin bu yanmış istiqamətdə bu yerlərdə Fazis adlanan Araza qədər hərəkət etmişdilər. M.İ.Maksimova yazır ki, “*путь, которым следовали тут греки неясен, тем более, что рассказ Ксенофонта в данном случае расходится со сведениями, сообщаемыми Диодором. По Ксенофонту, греки, дойдя до Фазиса, встретили на своем дальнейшем пути халибов и таохов, затем снова халибов, а по Диодору (XIV, 29) – хаев и фазианов, и пришли затем в Халдейскую область. Наконец, приложение к «Анабасису», составленное не Ксенофонтом (см. текст, VII, VIII, 25), также упоминает в этой связи халдеев. Так как таохи обитали, по-видимому, на равнине Карса, то надо думать, что эллины поняли свою ошибку и повернули от Фазиса на север и затем на северо-запад. Идя в этом направлении, они достигли реки Гарпаса (Чороха), вдоль которой и пошли, пока не прибыли к городу Гимниаде*”.

Ksenofonun “Anabasis”isinin mətninin bu hissəsindən və M.İ.Maksimovanın şərhlərindən hansı nəticələr əldə etmək mümkün olur?

**Birincisi**, qərbi Armeniyanın hökmdarı Tiribaz idi. Pers imperiyasının satrapı və bu ərazi (qərbi Armeniya da şərqi Armeniya kimi) pers çarının hökmranlığı altında idi.

**İkincisi**, satrap Tiribazın pers qoşununda xalib və taoxlar (qəbilələr) muzdlular idi.

**Üçüncüsü**, bu ərazidə (Qərbi Armeniya) ünsiyyət dili kimi, hətta adi sakinlərdə də, pers dili idi.

Beləliklə, Ksenofonun verdiyi məlumatlara əsasən, şərqi Armeniyada hökmranlığı satrap pers Oront, qərbi Armeniyada isə satrap pers Tiribaz, üstəlik Oront çar Artakserksin qayınatası, Tiribaz isə yaxın dostu idi, çünki bu ərazilər Pers imperiyasının tərkibinə daxil idi. Orontun və Tiribazın qoşunları perslərdən ibarət idi, bununla belə satraplar kontrakt əsasında əlavə olaraq,

armenləri, mardları, xaldeyləri, xalibləri, taoxları və ola bilər ki, regionun digər qəbilə nümayəndələrini muzdlular kimi istifadə edirdilər.

Bir sözlə, Armeniyanın istər şərqi, istərsə də qərbi hissəsinin idarəçiliyi perslər tərəfindən həyata keçirilirdi və başlıcası odur ki, qoşunları perslərdən ibarət olaraq, yerli qəbilələrin nümayəndələrini yalnız haqq ödəmək şərti ilə müəyyən əməliyyatlarda iştirakı nəzərdə tutulurdu.

Çox əhəmiyyətli bildiriş ondan ibarətdir ki, Armeniya ərazisində kənd qadınları və qızları, həmçinin armenlər kəndinin kəndxudası ellinlərin tərcuməçiləri ilə məhz pers dilində sərbəst ünsiyyət yaratmaqda idilər. Və hansısa hay-erməni dilinin mövcudluğu haqqında söhbət açılmır, belə dildən əsər-əlamət yoxdur. Çox güman ki, həmin dövrdə Armeniyanın əhalisinin əksəriyyəti üçün pers dili doğma dil idi.

**Belə şəraitdə hansısa Armeniya – Hayastan haqqında söhbət açmaq, tarixşünaslığa bunu daxil etmək, hətta hay dövlətçiliyi haqqında "araşdırmalar" yaymaq həqiqətə uyğun deyil, saxtakarlıqdır.**

**2.** E.ə. V əsri qoyub, təxminən 5 yüz il irəliləyərək, Ksenofon dövründən Strabon dövrünə müraciət edək.

**Strabon, "Coğrafiya", I kitab, II fəsil (rus dilinə tərcümə).**

Strabon yazır:


STRABONIS
RERVM GEO-
GRAPHICARVM
LIBRI XVII.
ISAACVS CASAVBONVS recensuit, summoque studio & diligentia, ope etiam veterum codicum, emendauit, ac Commentariis illustrauit, & secundis curis cumulatè exornauit, quæ nunc primum prodeunt.
Lutetiæ Parisiorum, Typis Regiis.
M. DCXX.
CVM PRIVILEGIO REGIS CHRISTIANISSIMI.

*«...Армяне [должно быть армены!], сирийцы и арабы обнаруживают тесное родство не только в отношении языка, но и в образе жизни, сходства телосложения, особенно потому, что живут в близком соседстве".*

Yazdıqlarını qədim müəllif Posidoniya istinadən xalqların adlarının etimologiyasını "из родства народов и общих черт их характера" və Mesopotamiya ətrafında yaşadıqlarından çıxarır. Strabon göstərir ki, bu üç xalqlardan suriyalılar mərkəzdəki yerləri tutduqlarından,

daha çox istər öz şimal qonşuları – armenlərlə, istərsə də cənub qonşuları – ərəblərlə oxşardılar.

Posidoniya istinadən Strabon yazır:

*"…**имена этих народов родственны; ведь те народы…, которых мы называем сирийцами, сами по-сирийски называются аримеями и араммеями и существует сходство в имени последнего народа с именем армян, арабов и эрембов, так как древние греки, возможно, называли арабов, тем более, что этимология слова подтверждает это**"*.

**Strabon, "Coğrafiya", XI kitab, XIV fəsil.**

Strabon bu hissədə yazır: *"…**Армению, в прежние времена бывшую маленькой страной, увеличили войны Артаксия и Зариадрия. Они были первоначально полководцами Антиоха Великого, а впоследствии, после его поражения, стали царями (первый – царем Софены, Акисены, Одомантиды и некоторых других областей, а последний – царем страны вокруг Артаксаты); они расширили совместно свои владения, отрезав часть областей окружающих народностей**…"*. И далее, Страбон делает вывод: "***Поэтому все эти народности теперь говорят на одном языке***".


KOLKHI
Damal
Hanak
Ардахан
Ardahan
Ахалкалаки
UKHIMERANI
Дманиси
Trembling Poplar Grove
Arpaçay
Гюмри
Ванадзор
Иджеван
Göle
Susuz
Akyaka
Карс
Kars
DIAVEKHI
ERIAKHINI
Артик
Раздан
Севан
Selim
Гавар
Чаренцаван
Charentsavan
Sarıkamış
Мартуни
Kağızman
Вагаршапат
ETIUNI
Ереван
Iğdır
ERIKUAKHI
Арташат
Halfeli
Арарат
Ağrı Dağı
Eleşkirt
Karaköse
Hamur
Урарту
Diyadin
Doğubayazıt
Palandöken
Маку
ماکو
Patnos
Malazgirt
Çaldıran
Erciş
Мурадие
Muradiye
Çelebibağı
Adilcevaz
Ahlat
Hacılar







**Mənbə:** F.Kırzıoğlu, "Kars tarihi"

**Strabonun yazdıqlarından hansı nəticələr əldə etmək mümkündür?**

**Birincisi**, Ksenofondan 5 əsr sonrakı dövrdə, Antiox (Selevkilər) sərkərdələri Artaksiy və Zariadriy tərəfindən (sonrakı çarlar) ərazisi artırılan Armeniyada pers danışıq dili aramey dili ilə əvəz olunub və hansısa hay-erməni dili haqqında heç bir işarə yoxdur. Bu isə Ksenofonun Armeniyada işlənilən hansısa hay-erməni dilinin olmaması məlumatını təsdiqləyir.

**İkincisi**, Strabonun fikrincə suriyalıların, ərəblərin və armenlərin (ermənilərin) dil yaxınlığı ilə yanaşı, onların həyat tərzində, bədən quruluşunda və s. qohumluğu və oxşarlığı mövcuddur (biz bu 2-ci nəticəni ayrılıqda sonra araşdırırıq).

**3.** 5 əsr də irəli gedərək, bizim eramızın VI əsrində dayanaq və Prokopi Kesariyskinin yazdıqlarına nəzər salaq.

**Prokopi Kesariyski "О постройках" ("Tikililər haqqında"), III kitab**


ΠΡΟΚΟΠΙΟΥ
ΚΑΙΣΑΡΕΩΣ
ΠΕΡΙ ΤΩΝ ΤΟΥ ΔΕΣΠΟΤΟΥ
ΙΟΥΣΤΙΝΙΑΝΟΥ ΚΤΙΣΜΑΤΩΝ
ΛΟΓΟΙ ΕΞ.
PROCOPII CÆSARIENSIS
DE ÆDIFICIIS DN. IVSTINIANI
LIBRI SEX.
Auctiores quam ante & emendatiores.
*Interprete* CLAVDIO MALTRETO *Aniciensi*
*Societatis* IESV *Presbytero.*
TOMI II. PARS PRIOR.
PARISIIS,
E TYPOGRAPHIA REGIA.
M. DC. LXIII.

Source gallica.bnf.fr / Bibliothèque nationale de France

Armeniya haqqında yazarkən bu müəllif Bizans imperatoru Yustinianın etdiklərini xüsusi qeyd edir. Göstərir ki, imperator Sofafena [Sofena], Feysonda dağarası keçidləri möhkəmləndirmiş, burada yeni tikililər, müdafiə ehkamlar qurmuş və hərbi qarnizon yerləşdirmişdi. Sonra isə müəllif qeyd edir:

*"Вот какими способами он [император] явился спасителем для народов Армении, дав им безопасность"*.

**Prokopi Kesariyskinin yazısından hansı nəticə əldə etmək mümkündür?**

Tamamilə aydın görünür ki, Ksenofon dövründən təxminən min il keçməsinə baxmayaraq, Armeniya ərazisində öncə olduğu kimi bir sıra xalqlar (qəbilələr) yaşamaqdadır və hay-ermənilərin mövcudluğu, artıq titul millət olduğu haqqında heç bir işarə yoxdur. Bu fakt bir daha "Armeniya" sözünün ilk növbədə ərazi-coğrafi ad olduğu tezisini təsdiqləyir.

# III. ARMENİYA / ARMİNİYA ADININ MƏNŞƏYİ

**1.** "Armeniya" adının mənşəyini şərh edərkən, iki mövcud nöqteyi-nəzərdə dayanmalıyıq, lakin bunların heç birinin indiki hay-ermənilərə aidiyyəti yoxdur. Daha təfsilatı ilə məsələ haqqında məlumatı bizim çap olunmuş aşağıdakı əsərlərimizdə əldə etmək mümkündür:

"Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ"; "Öz-özünü təkzib edən "erməniçiliyin müəllif hüququ"; "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", həmçinin "Ümumdünya kitab və müəlliflik hüququ" və "Beynəlxalq əqli mülkiyyət" günlərinə həsr olunmuş 2013, 2015, 2016-cı illərin aprel ayının konfranslarındakı prezentasiyalar. Bunlardan qısaca tezislər aşağıdakılardır:

**Birincisi**, Armeniya (Arminiya) – Armini coğrafi termin – toponim və xoronim qismində e.ə. 520-ci ildə Behistun yazısında işləndikdə "yuxarı", "yüksək" ölkə mənasını daşıyır və Urartu adının sinonimi kimi çıxış edir, Urartu yazılarında (e.ə. VII ə.) "Arme" Dəclə və Fərat çaylarının yuxarı axarlarında, şərqdəki diyar kimi verilir, qədim yəhudi mətnlərində Assuriya və Babilon mixi yazılarında, qədim Persiya, Yunanıstan mətnlərində isə "Urartu"nun mənası da həminki kimi idi – "üst", "yuxarı", "yüksəklik", "üst torpaq", "dağlıq" və s. Strabonun "Coğrafiya"sında "Armi / Arim" Kilikiyada yerləşdirilirdi və hesab edirəm, heç də təsadüfi deyil ki, bu gün də Türkiyənin Karaman vilayətində "Ermenak" adlı şəhərin adı qorunub saxlanılır.

**Türkiyənin xəritəsi, Karaman vilayəti, Ermenek şəhəri**




Mənbə: *http://www.arasikackm.com/m/ermenek-karaman_karaman*

**İkincisi**, “Armini” adının etnonim olmasına da rəylər mövcuddur. Belə ki, qədim yazarların – Kalisfen, Pindarın yazdıqları mənbələrdə bu adın Kilikiyada Kalika dağı ətrafında yaşayan “Arim”lər qəbiləsindən irəli gəlir və elə bu səbəbdən qonşuluqdakı dağların adları da “Arim”lərdir.

“Armini” terminınə aid ən dolğun məlumat prof. C.Kempbell (J.Campbell) qədim Xattlara aid ingilis dilindəki əsərində tapmaq mümkündür [J.Campbell, “The Hittites. Their Inscriptions and their History”. Montreal, Toronto, 1890] və burada göstərilmişdir ki, “Armini” adının kökü Arima / Arimi / Erme (yunanca “Arimai”) qəbiləsindən əmələ gəlib. “Arimai” adını daşıyan qəbilə Nairi xalqları sırasına daxil olanlardır, “Nairi xalqları” isə öz növbəsində qədim turanlı Xattilərin bir qolu idi və bunlar İncildə Ashteroth (Ashashtari) adı ilə qeyd olunan nəsillərin törəmələridir, sələfləridir.

Qədim misirlilər bunlara mesopotamiyalı Naharaim, ivrit yazılarında onlar Aram Naharaim şəklində xatırlanır, assuriyalılar isə öz mətnlərində bunları

Nairi adlandırırdılar. Herodot bunları Neuri (Nevrlar) adı altında Sakalara aid edirdi [Bunlarla bağlı daha ətraflı çap olunan K.İmanov "Кавказская Албания и Хатты Малой Азии" kitabından və "Историческое и культурное наследие этносов Кавказской Албании в контексте прав человека" beynəlxalq konfransında (2014-cü ilin iyun ayı) edilən prezentasiyadan məlumat əldə etmək olar].

**2.** Qeyd etdiyim səbəblərə görə, bir neçə xarici tədqiqatçılar, misal üçün, St-Martin (Sent Martin) "Armini" terminini "Aram" sözü ilə bağlayırlar, yuxarıda göstərdiyimiz Strabonun ermənilərinin samilərlə (arameylər, suriyalılar, ərəblərlə) qohum olduğu fikirləri də bunlarla bağlıdır. Odur ki, hansı ermənilərin – hayların, yoxsa armenlərin nəzərdə tutulduğuna aydınlıq gətirmək vacib məsələdir. Bu məqsədlə bir neçə alimlərin fikirlərini göstərək:

- İ.Dyakonov (tanınmış tarixçi-alim): "*Haylar özlərini heç zaman "armenlər" ermənilər adlandırmamışlar*".

- İ.Şopen (fransız mənşəli rus alimi): "*Ermənilərin və hayların mənşəyi fərqlidir. Ermənilər pelasqlardan (qədim ionlar, sonrakı etrusklar), haylar isə semitdilər... Ermənilər parfiyalılara etnik yaxındılar (ərsaklar, saklar)*". ..."*Alimlərə aydın olmayan səbəblərə görə hayları və onların vətəni Hayastanı Ermənilərlə və Armeniya – Ərməniyyə ilə qarışdırıblar. Erməni şimaldan gələn, Yafət soyundan olan (madiylər, aşkenazlar, qəmərlilər, torklar və s.), Hayk cənubdan gələn, Sim soyludur*". ..."*Haykın törəmələri "Armen", "Somex" adlarını tanımaq istəmirlər... Bu xalqın ədəbiyyatı yalnız Haykanlar adından yazılıb və heç bir izahı yoxdur ki, hansı səbəbdən bugünkü ermənişünas alimlər Hayların və Hayastanın adlarını "Armen" və "Armeniya" kimi tərcümə edirlər*".

- N.Adonts (məşhur erməni tarixçisi, "Ermənistan Yustinian dövründə"): "*Erməni milləti müxtəlif qəbilə, hətta irqi elementlərdən formalaşıb*".

- N.Emin (erməni müəllifi və tərcüməçisi): "*...Haykanlar ermənilər deyil və tamam ayrı mənşəli xalqdır*".

- İ.Şopen hesab edirdi ki, müasir hay-ermənilər "*ermənilərin, parfların, hayların və yəhudilərin qarışığından əmələ gələn, öz mənsubiyyətini və doğma adını unutmuş xalqdır*".

**Göründüyü kimi, Aram adı vasitəsilə samilərlə qohumluq armenlərlə bağlı deyil, haylara aiddir.**

Bəllidir ki, çoxlu saxtakarlıqların kökü M.Xorenskidən gəlir və növbəti saxtakarlığı yararlandırır, məhz bu ən məşhur hay tarixçisi əcdadlarının mifik obrazlarını yaradaraq, bir neçə eponimləri – Aramaneak, Aramais, Aram, Hayk saxtalaşmış İncilə daxil etmişdir. Məhz bu tarixçi qeyd etmişdir ki, hayların ölkəsini müxtəlif xalqlar Aramın adı ilə bağlayır, necə ki, yunanlar – "armen", farslar və suriyalılar "armenik" deyirlər (kitab 1, fəsil 12). Lakin tarixdən bəllidir ki, Aram məşhur semit xalqının – arameylərin soy başçısıdır. Arameylərin dili Yaxın Şərq və Mesopotamiya xalqlarının ünsiyyət dili idi, aramey dilində İncilin qədim və yeni kitabları yazılmışdır. Bunlara məhəl qoymayaraq, Xorenski "haylaşmış" Aramdan ağzıdolu danışaraq, onun hay xalqı naminə qəhrəmanlıq hərəkətləri haqqında bəhs edirdi. Uydurmaların nəticəsidir ki, hayların epik hekayələrində Aram erməni-hay xalqının istər başçısı, istərsə də eponimi kimi çıxış edir.

Beləliklə, Hind-Avropa mənşəli hay-ermənilər armenlər də olmaq istəyirlər, sami-arameylər də, çünki bu vəziyyətdə hər ikisinin nüfuzundan bəhrələnmək mümkün olardı. Heç də təsadüfi deyil ki, müasir erməni mütəxəssisləri (tarixçi və dilçiləri) buna həsr olunmuş kitablar dərc edirlər (məs., N.Mkrtıçyan, "Семитские языки и армянский", Yerevan, 2005).

Bu hissənin sonunda aşağıdakı nəticələri qeyd edək:

- Qədim Armeniya / Arminiya da yaşayan sakinlər – armenlər heç də hay-ermənilər deyil, müxtəlif qəbilələrdən olanların yığcam adlandırılmasıdır. Ərazinin adının Hay-Ermənistana aidiyyəti yoxdur. Ərazidə işlənilən dillər hay-ermənilərə məxsus olmayıb və əsasən Arminiya ərazisinin daxil olduğu dövlətlərin dili olub.

- Şərqi Anadoluda yerləşən Armeniya ərazisi qədim zamanlardan başlayaraq, bir sıra avtoxton etnosların yaşayış məkanı olmuş (xatlar, xettlər, xurrilər, subarlar, alarodi-urartular, sonradan qəmərlilər və saklar və digər turan mənşəli xalqlar, xaldeylər, xaliblər, taoklar və s.), haylar isə bu əraziyə gəldiyi andan başlayaraq, heç zaman buradakı xalqlar topluğunun çoxluğunu təşkil etməmişlər və kiçik koloniya şəklində ucqarda yaşamışlar.
- Haylar Armeniya ərazisinə gəldikdən öncə semit olan və əcdadlarını Aram adlandıran arameylərin güclü təsiri altında toplu kimi formalaşıblar.
- Qədim Xattlardan gələn termin "Armi", Herodot vaxtında Armeniya / Arminiya / Ermeniya ərazi inzibati bölgü mənasında işlənmiş, xristianlıq dövründə daha çox bu ərazidə yaşayan xalqların Qriqorian konfessional toplusu mənasını daşıyıb və orta əsrlərdə əsas sakinlər kütləsinin islamı qəbul etdikdən sonra haylar tərəfindən etnonim kimi mənimsənilib.
- Haylar orta əsrlərdə "ermənilər" etnonimini mənimsəməklə bir neçə məqsəd güdmüşlər: uydurma "Ermənilər" adı altında avtoxton xalqların ərazilərini özününküləşdirmək, onların tarixini "Haylar tarixinə" çevirmək, VI əsrdə Yustinianın inzibati islahatı ilə bağlı özlərinə legitimlik qazanmaq və həmin zamanlardan işlənilən "Armeniya" terminini çağdaş hay-ermənilərə aid etmək.

# IV. ARMENİYA COĞRAFİ AREALININ “ÇARLIQLARI” VƏ “SÜLALƏLƏRİ”

**1.** Hay-erməni fantaziyalarını və əfsanəvi yazılarını kənara qoyaraq (məs., təxminən e.ə. 2500-ci ildən gələn mifik Haykazuni çarlıq sülaləsi) hay-erməni tarixşünaslığında möhkəm yer alan bir neçə “çarlar” sülaləsindən söhbət açacağıq.

Qeyd edək ki, sözügedən sülalələrin hökm etdiyi “çarlıqlar” zaman kəsiyi olaraq Əhəmənilərin son dövrünü, Makedoniyalı İsgəndərin imperiyasının yaranmasını və sonradan Selevkidlər dövlətinə çevrilməsini, Selevkidlərin süqutunu, Roma imperiyasının güclənməsini və həmçinin qüdrətli Böyük Ərsaklar (Parfiya) dövləti və ondan sonra Sasanilərin dövlətinin yaranmasını əhatə edir. Tarixi planda həmin zaman kəsiyi təxminən minillik dövrə bərabər olmaqla e.ə. V əsrdən b.e. V ə. qədər uzanır. Söhbət Orontidlər (Ervantdidlər), Artaksidlər (Artaşesidlər) və Kiçik Ərsakidlərdən (Arşakidlər / Arşakuni) gedir. Bəllidir ki, Əhəmənilər satrapı Orontun və onun “sülaləsinin” tarixi Əhəmənilər zamanından (e.ə. VI-IV ə.) başlayaraq Selevkidlər dövrü ilə (e.ə. 200-ci il) tamamlanır. Makedoniyalı İsgəndərdən və onun sələfləri Selevkidlərdən sonrakı dövrdə “Armeniya” (Armenya) diyarının tarixini şərti olaraq iki hissəyə bölmək mümkündür:

1. Artaksidlər (Artaşesidlər) “sülaləsinin” dövrü (e.ə. 188-ci il – e.ə. 63-cü il);
2. Kiçik Ərsakidlər (Arşakidlər-Arşakuni) (e.ə. 63-cü il – b.e. 429-cu illər).

“Armeniya” diyarı tarixinin iki hissəyə bölünməsi ona görə şərtidir ki, həmin zaman, yəni e.ə. I-II əsrlərdə, Böyük Ərsakların hakimiyyəti təsdiq olunana, yəni Kiçik Ərsaklar sülaləsinin yaranma dövrünə qədər, Artaksidlər dövrünün müəyyən bir vaxtında, daha dəqiq desək, e.ə. 123-88-ci illərdə Parfiyanın protektoratı altında olan Armenya dünyanın ən güclü dövlətləri sayılan Roma və Parfiya imperiyalarının nifaq almasına çevrilmişdir. Biz

biləerəkdən “dövlətçilik tarixi” əvəzinə “sülalə tarixi” terminologiyasını istifadə edirik, ona görə ki, I Tiqran Artaksidin (95-56-cı illər) qısa - 40 illik hakimiyyətinin xaricində, Armenya adlanan diyarının dövlətçilik mənasında tam atributikası mövcud olmayıb.

Məlumdur ki, Böyük adlanan Selevkid III Antioks (223-187-ci illər e.ə.) ərazilərini genişləndirmək məqsədilə e.ə. 213-cü ildə hökmdarı Artabazd olan Atropatenanı fəth etdi, 13 il sonra isə - e.ə. 200-ci ildə Araz və Murat çaylarının üst hissələrini torpaqlarına birləşdirərək, öz strateqi fars əsilli Artaksiyası bu ərazilərin satrapı qoydu, regionun qərbində isə Sofena (Elaziz-Tunceli) məmləkətinə Zariadrisi vəzifələndirdi və bütün yeni istila edilmiş əraziləri Selevkidlərin mərkəzi olan Antakiyaya bağladı (bax: R.Grousset). Arazın sahilində yerləşən Armavir şəhəri Artaksiyasın, Karkatliokert (indiki Harput, Kartabert qalası) isə Zariadrisin paytaxtı oldu. İstilalarla əlaqəli dəyişikliklər Muş və Van əyalətlərinin qərb torpaqları sayılan, Murat çayının sahili boyu yerləşən və coğrafi anlam daşıyan “Armenya / Armeni” ərazisinə də öz təsirini göstərdi. Belə ki, bu coğrafi areal Araz çayının sahillərinə qədər genişləndi. Mahiyyətcə coğrafi areal sayılan Armenya qədim Urartu anlayışına yaxınlaşmış oldu, romalılar və avropalılar isə öz düşüncələrində həmin ərazini elə bu cür də təsvir edirdilər. Məsələn, yenə də Ksenofonun “Anabasis” əsərinə müraciət etsək (IV, iv, 1, 18; v.34), görərik ki, müəllifin özü də “Armenyanı” Kentrides (Bohtan) və Malazqert suları arasındakı düzəngahlıq ərazidə yerləşdiyini təsəvvür edirdi. Bu ərazinin cənubunda  Karduklar, şimalında isə Phasian və Xaliblər məskunlaşırdı.

Xatırladaq ki, Armeniyanın başında Orontes və Tribazus adlı iki iranlı satrap dururdu. Müvafiq olaraq biri satrapiyanın şərq, digəri isə qərb hissəsində hökmranlıq edirdi. Ərsakidlərdən fərqli olaraq bu hökmdarlar İran kökənli pers (qədim fars) qanından idilər. Əhəmənilər dövründə Orontidlər hökmran qismində qalmağa davam etdilər, Makedoniyalı İsgəndərin hakimiyyəti və daha sonra Selevkidlər dövründə isə Oront satrap vəzifəsində satrapiyada hökm sürməyə davam etdi, sülaləsinin adı isə Orontidlər (Ervantidlər) adını

aldı. Orontidlər sülaləsi e.ə. 200-ci ilə qədər hökm etdi, Selevkidlərin dövründə isə öz mövcudluğunu itirmiş oldu.

Selevkidlər bütün Anadolunu fəth edəndən sonra, Yunanıstanı da ələ keçirməyə qərar verdilər, ancaq III Antioksos (III Antiox) 191-ci ildə Termopil yaxınlığında romalılara məğlub oldu, 190-cı ildə isə Manisanın ətrafında romalılar onu tamamən darmadağın etdi və beləliklə Selevkidlərin Anadoludakı əraziləri bölünərək, Artaksid sulaləsinin yaranmasına gətirib çıxardı.

E.ə. 188-ci ildə yaranan Artaksidlər “çarlığı” mahiyyətcə Ərsakidlər dövləti və Roma imperiyası arasındakı bufer zonasında yerləşirdi və vaxtaşırı hər iki imperiyanın himayəsi altına keçirdi, e.ə. 10 ildən sonra isə Ərsakidlər burada hökm sürən sülaləni devirərək, sözügedən ərazidə Kiçik Ərsakidlər (Ərşakunik) dövlətini yaratdılar.

200 il sürən Artaksidlər, sonralar isə Ərşakidlər dövründə türkmənlərin əcdadları sayılan ərsaklar və ya əski oğuz tayfaları İran ərazisindən indiki Ermənistana, Qars elinə daxil olurdular və Kürün sahillərində özlərinə yaylaq və ya qışlaq yaradırdılar.

Özlərini “hay” adlandıran ermənilər isə “Armenya” coğrafi arealın adını heç vaxt istifadə etməmişlər və yadellilərin onlara münasibətdə işlətdiyi “erməni” sözündən heç xəbərləri yox idi. (Streck “Armenie”, Encyklopedia de l’Islam; həmçinin: Esat Uras “Tarihte ermenilər”).

## 2. Orontidlər.

“Çarlıqlar” sırasında ilk növbədə bundan əvvəl Ksenofona istinad etdiyimiz **Orontidlər** (haylar Ervanduni kimi verirlər) haqqında həqiqətləri söyləyəcəyik. Ksenofonun göstərdiyi kimi, şərqi Armeniyada başçılıq edən Oront pers satrapıdır. Hay-erməni mənbələrinə görə, Ervanduni, Ervantidlər, ellinləşdirilmiş formada Orontidlər adlanırdılar və hay sülaləsidir, e.ə. VI-IV ə. Pers Əhəməni satrapları olaraq, e.ə. 323-200-ci illərdə Ayrarat çarları qismində “Armeniyada” hökmdarlıq etmişlər. Tarixçilərin və dilçilərin Oront / Ervand /

Arvand adının yetkin olaraq, İran mənşəli köklərinə baxmayaraq, yox-yox hay-erməni tarixşünasları bu adı yerli, hay-erməni zadəganları ilə bağlayırlar. Lakin, yuxarıda göstərildiyi kimi, Armeniya sakinləri – armenlər heç də hay olmadığına görə, bəlli deyil hansı zadəganlardan söhbət gedir.

Qədim İran kişi adı olan Ervant / Arvant "cəld", "sürətli", "enerjili" mənasını daşıyır və tarixdə bu ad altında bir neçə şəxslə rastlaşmaq mümkündür. Misal üçün, Ksenofon "Anabasis"indəki (I, 1.6, 1-11, 9, 2a) Oront – çar ailəsinə aidiyyəti olan pers sərkərdarı, hansı ki, Əhəməni qardaşları II Artarksers və Kiçik Kir arasında taxt münaqişəsində legitim çar olan Artakserksin tərəfində çıxış etmiş və ya Artasirasın oğlu baktriyalı Oront, hansı ki, yenə də Ksenofonun və Pompey Troqqun bildirişlərinə görə, Əhəməni çarı, II Artarkserks zamanı Armeniyaların satrapı idi, özü də Diodor Sisiliyalının "Tarixi kitabxana" əsərində qeyd edildiyi kimi, II Artakserksin qaynı olmuşdu. Bu şəxs Kommagenada hökmdarlıq edən Orontidlər sülaləsinin əcdadı kimi qəbul edilir və öz köklərini Əhəməni çarları ilə bağlayırdı. Bundan savayı, Sisiliyalı Diodora əsasən, Missiyanın satrapının adı da Oront idi.

**Nəhayət**, Əhəməni çarı III Dari (Kodoman, e.ə. 336-330-cu illər) zamanında Armeniya satrapı olan Oront, hansı ki, elə III Daridən sonra həmin satrap vəzifəsinə gətirilmişdi. Bunları Yustin öz "Эпитомия сочинения Помпея Трога. История Филиппа" əsərində qeyd etmişdi. Arianın "Anabasis"inə əsasən, Makedoniyalı İsgəndər və III Dari Qavqamella döyüşü zamanı bu satrap Armeniyadan yığılan qoşun başında durmuş idi. Baxmayaraq ki, döyüş nəticəsində Əhəməni imperiyası süqut etdi, Sisiliyalı Diodorun məlumatına əsasən, bu satrap Armeniya başında durmağı itirmədi və bunun səbəbini tarixçilər güman ki, Makedoniyalı general Pevkest ilə dostluğunda görmüşdülər. Orontdan sonrakı dövrlərdə də eyni adlı hökmdarlar Armeniya satrapları olmuşdular.

**Bu məqam hay-erməni tarixşünaslığında "inqilabi" xarakter daşıyır**, çünki bundan onlar hesab edirlər ki, Armeniya satrapiyasının idarəçiliyi varislik prinsipinə görə, bu ailənin ixtiyarına verilmişdir.

Sözügedən Orontın köklərindən danışarkən, qeyd edilməlidir ki, bu ailənin əcdadı məşhur Gidarn – "yeddi perslərdən" biridir. Tarixi sənədlərdən bəllidir ki, bu "yeddilik" özünü çar elan edən Qaumataya qarşı çıxanlardır və bununla da çar I Darinin Əhəməni imperiyasının başında dayanmasının müdafiəçiləridir. Üstəlik, Gidarnın atası, özü də Gidarn adlı şəxs Əhəməni imperiyasının ən vacib satrapiyası – Midiyanın başçısı olmuşdur.

**Çox güman ki, hay-erməni kitablarında məhz bu hökmdarlar xətti Orontidlər (Ervantidlər) qismində xatırlanırlar. Lakin erməni yalanları və saxtalaşmaları elə gülməli vəziyyətə gətirib ki, bu xətlə digər Orontidlər xətti qarışdırılır və ən çox Kommagen Orontidləri.**

Bu sülalənin xələfi, Gidarn kökündən gələn Arminiyanın sonuncu satrapı, o da Oront adlı, Selevkilər imperiyası dövründə (Armeniya imperiyasının tərkib hissəsi idi) III Antioxa qarşı çıxıb, məğlub edilərək, Armeniya ərazisinin parçalanmasına gətirib çıxartdı və III Antiox bu ərazini öz general-strateqləri Artaksi və Zariadr arasında bölüşdürdü. Bununla da Orontid "sülaləsi" bitmiş olur.

Beləliklə aşağıdakı nəticələrə gəlirik:

a) Göründüyü kimi, Orontidlər sülaləsindəki hökmdarların hamısı satraplar və strateqlər (Əhəməni və Selevki dövlətlərində) olmuş, onların müstəqil dövlət (çarlıq) başçısı haqqında mənbələrdə heç bir məlumat yoxdur.

b) Bununla belə, hay-erməni mənbələrində e.ə. 522-ci ildən başlayaraq, Makedoniyalı İsgəndərin dövrünə qədər Armeniyanın Əhəməni Pers imperiyasının bir parçası olması etiraf edilsə də, Əhəməni dövlətinin süquta uğraması e.ə. 331-ci ildən başlayaraq, Armeniyanın torpaqlarının faktiki olaraq, müstəqil olması fikri irəli sürülür. Üstəlik, makedoniyalıların hakimiyyətinin Armeniya tərəfindən tanınması söylənsə də Böyük İsgəndərin yaratdığı imperiyadan nominal olaraq asılılığı ifadə edilir və bunun sübutu kimi İsgəndərin və onun sərkərdələrinin Armeniya ərazisinə daxil olmaması gətirilir.

v) Makedoniyalı İsgəndərin e.ə. 323-cü ildə ölümündən sonra imperiyasının parçalanması və satrap III Orontun özünün çar elan edilməsi göstərilir. Selevkilər dövründə Armeniyanın sıralarında "böyük Armeniya" ən əhəmiyyətli olan bir neçə erməni çarlıq və bəyliklərə parçalanması təsdiqlənsə də, faktiki olaraq, müstəqil olması, Orontidlər ərazisinin Selevkilərə tabe olması etiraf edilsə də, yenə də nisbətən müstəqil olmaları fikri irəli sürülür.

Beləliklə, hay-erməni tarixşünaslığında müxtəlif gedişlər edilərək, "böyük Armeniya" = Ayrarat "çarlığı" və Orontidlərin tam mənada çar olması uydurması irəli sürülür. Halbuki, Selevkilər hökmranlığı zamanında Armeniya başçılarına çar yox, "strateq" (perslərin "satrap") titulu verilərək, bunlardan tabe olanlar qismində vergilər yığılırdı.

d) Lakin tarixi sənədlərdən bəlli olur ki, e.ə. 200-ci ildə III Antiox Armeniyanı Sofenaya qatdı və yalnız romalılar Antioxu məğlubiyyətə düçar etdikdən sonra Armeniyanı yerli hökmdarları – strateqlər e.ə. 190-cı ildə özlərini müstəqil çarlar elan etdilər (Artaksiy və Zarpadriy). Artaşes "böyük Armeniya"nın hökmdarı oldu, Firatdan qərbdə isə "kiçik Armeniyada" başçılıq edən Antioxın qohumu Mitridat idi.

### 3. Artaksidlər / Artaksiylər.

- Göstərdiyimiz kimi, Selevkilər Antioxun romalılar tərəfindən məğlub edildikdən sonra (e.ə. 190-cı il, Maqneziya döyüşü) onun iki strateqi (qubernatorları) Artaksiy və Zariadr, Strabonun verdiyi məlumata əsasən, üsyan qaldırmış, romalıları dəstəkləyərək, Antioxa qarşı çıxış edərək, özlərini çar elan etmişlər. Bununla keçmiş Əhəməni və Selevkid Armeniya satrapiyası iki yerə bölünərək, Artaksiyin payına Armeniya (buna hay-erməni tarixçiləri "böyük Armeniya" deyirlər), Zariadrın payına isə Firat çayından şərqdə yerləşən Sofena düşmüşdü. Roma senatı onlara rəqib olan Selevkidlərdən bu iki "çarlığ"ın asılılığı olmadığını tanıdı. Qeyd edək ki, "çarlıq"larla yanaşı, Firatdan qərbə doğru Kiçik Armeniya da mövcud idi və başçısı Antioxun qohumu Mitridat idi. Tarixi məlumatlara əsasən, Artaksiyin "çarlığı" e.ə. 189-cu ildən b.e. 52-ci ilinə qədər mövcud idi.

- **Artaksiy “çarlığı” ilə bağlı hay-erməni tarixşünaslığının bir neçə yalanı mövcuddur.**

**Birincisi**, Artaksiyin (e.ə. 189-160-cı illər) milliyyətcə pers olduğu halda, onun hay-erməni köklü olması yalanı. Bununla yanaşı onu “erməni çarı” xüsusən də “müstəqil çar” adlandırmaq böyük qeyri-korrekt bir yanlışlıqdır və tarixi hadisələr bunu təsdiq edir. Belə ki, Strabona əsasən (XI, xiv, 5, 15) I Artaksis öz müstəqilliyini qabartmaq üçün ölkəni genişləndirmək istiqamətində Midiya-Atropatena (Azərbaycan) hökmdarlarından Kaspiana (Muğan), Phaunnitid (Culfa və Xoy) sonralardan Vaspurakan adlandırılan Basored (Van gölündən şimala doğru) ərazilərini, İberlərdən isə Paryadres yamaclarını (Rize dağları) ələ keçirməyi bacardı. O, həmçinin Kürün üst hissələrindəki Qoqarena (Gölə, Ərdahan, Laru və Xiram çayı) (bax: J.Sandalgian, II; R.Grosset) ərazilərini də özünə tabe etdi. Bununla kifayətlənməyən Artaksis Selevkid qarnizonlarının yerləşdiyi Tarontid (Muş, Axlat) ərazilərini də ələ keçirdi. Plutarxa əsasən, Artaksis sığınacaq verdiyi Hanniballa birləşərək Rəvanın cənub hissəsini əhatə edən Arazın sol sahilində ermənilərin Ardaşat (Artasada) (bax: J.Sandalgian, II, R.Grosset) adlandırdığı yeni paytaxt inşa etdi. Artaksid “dövlətinin” himayədarı olan Selevkidlər Artaksisin bu hərəkətlərini yolverilməz hesab etdilər və e.ə. 166-cı ildə IV Antioks (Epifanes, e.ə. 175-164-cü illər) cəza dəstəsi ilə Artaksisin üzərinə yürüdü, ordusunu məğlubiyyətə uğratdı, Artaksisin özünü isə əsir götürdü. Və beləliklə bu ərazilərdə öz hakimiyyətini bərqərar edən Selevkidlər, geri Suriya ərazilərinə döndü. (bax: R.Grosset). Deməli, hay-erməni tarixçilərinin “müstəqil erməni çarı” deyə inandırmağa çalışdığı məsələ tarixi yalandan başqa bir şey deyildir.

**İkincisi**, Strabonun yuxarıda qeyd etdiyimiz məlumatına əsasən, Artaksiy döyüş və qələbələri ilə ərazisi kiçik olan Armeniyanı böyütmüş və göstərmişdi ki, burada yaşayan xalqlar bir dildə danışırmışlar. Buradan erməni tarixçiləri nəticə çıxarırlar ki, bu “çarlığ”ın artıq vahid dildə danışan (ermənilərin rəyinə görə, hay-erməni dilində) yalnız erməni sakinləri olmuşdur. Halbuki, vahid dil

dedikdə aramey dili nəzərdə tutulurmuş və bunu hay-ermənilərin "tarixinin atası" olan M.Xorenski təsdiqləyir. Belə ki, Artaksiy ölkəni vilayətlərə parçalayaraq, aralarına daş divardan sərhəd çəkmişdir. Artaksiyanın bir neçə tapılan həmin daşlardakı yazıları **aramey dilində** olmuş və "Artaksiy Ervantid hökmdarı" kimi oxunulmuşdur. Belə çıxır ki, işlənilən dil aramey dilidir, Artaksiyin özü isə kökünü Oront (Ervantid) kökünə bağlayır, halbuki Orontid sülaləsinə elə Artaksiy son qoymuşdur (ola bilər, bununla Artaksiy sülaləsinin legitimliyini təmin etmək məqsədi ilə öz kökünü bu cür təqdim etmişdir). Bu ölkənin dili ilə bağlı Şnirelmanın "Войны памяти" kitabında maraqlı mülahizəsi mövcuddur. Müəllif yazır ki, əgər haqqında az məlumat olan qədim dövlətdən söhbət gedirsə, yerli əhalinin dili ilə bağlı bir nəticəyə gəlmək qarışıq işdir, çünki yazılı sənədlər həmin etnik qrupun dilinə uyğundursa, o zaman deyirlər ki, bu hamının dilidir, əksinə, uyğunsuzluq olduğu halda isə bu dilin yalnız rəhbər bürokratiyanın dili olduğu təqdim edilir.

**Üçüncü**, erməni tarixşünaslığı aşağıdakı tezisi irəli sürür: "*Artaksiy sülaləsi dövründə "böyük Armeniya" böyüyərək, sərhədləri Kür çayının sol sahillərini əhatə edərək, Xəzər dənizinə qədər uzandı*". Halbuki, o zamankı saxtalaşdırılmamış xəritələrdə "böyük Armeniya"nın sərhədləri Xəzər dənizi ilə deyil, Araz çayı ilə məhdudlaşdırılır.

- Artaksiy "çarlığı"nın taxtına çıxan ən məşhur nümayəndəsi II Tiqrandir (e.ə. 95-55-ci illər), hansına ki, ermənişünaslıq "böyük" ləqəbi vermişdi, üstəlik, onun hökmdarlığı dövründə "dənizdən dənizə qədər" böyük Armeniya mifi formalaşmışdı. Lakin həqiqət odur ki, zamanın iki əsas siyasi qüvvələrinin Böyük Ərsaklar (Parfiya) və müvəqqəti çətinliklərini selevkilərin romalılarla savaşları və yaranmış tarixi durumu istifadə edərək, II Tiqran taxta çıxmış və Armeniya ərazisini böyütməyə nail olmuşdur, 40 il həqiqi müstəqil dövlət başçısı olmuşdur. Özü də taxta oturmaq üçün Armeniya torpaqlarının bir sıra bölgələrini Böyük Ərsaklara bəxşiş etmək hesabına.

Burada qeyd etməliyik ki, II Tiqran Artaksidin taxta çıxma dövründə Böyük Ərsakidlər dövlətində ixtişaşlar hökm sürürdü. Mitridadın sələfi Artabanın

dövründə (e.ə. 88-77-ci illərdə) şimal şərqdən Ərsaklara qohum olan Saka və Tokharların atlı köçəri axını Xorasanı fəth etdi, hətta Sinatrokun / Senadrukun (e.ə. 77-70-ci illər) və onun oğlu Firaatın (III Ferhad, e.ə.70-57-ci illər) simasında Sak tayfalarından olan "Sakarauk" (Saka Ravuk) qəbiləsi Ərsakidlər taxtına oturaraq, 20 il bu ölkəni idarə etdilər. Və heç də təsadüf deyildi ki, ərazisinin mühüm hissəsi Ərsakidlərin əlində olan Tiqran Ərsakidlər dövlətində hökm sürən nizamsızlıqdan sui-istifadə etmək istəyinə düşdü. Pontun çarı olan Tiqranın qayınatası romalılarla döyüş meydanında üz-üzə gəldiyi vaxt, 87-ci ildə Tiqranın ordusu Ərsakidlərin sərhədlərini pozaraq, "Adiaben" adlanan qədim Asiriya ərazisini ələ keçirdi. Bu minvalla Tiqranın qoşunu Erbil və Nineviyaya qədər gəldi. Daxili ədavət içində olan Ərsakidlər 95-ci ildə Tiqranla sülh bağladılar. Anlaşma gərəyi Ərsakidlər nəinki əvvəllər Tiqrandan aldıqları 70 düzəngahı qaytardı, hətta Osrhoen (Urfa), Arzanen (Garzan-Siirt), Miqdonya (Mardin-Nusaybin), Qordyen (Bohtan – Həkari, Kürt eli), Adiaben (Mosul-Kerkula) regionları əldən verdi və Kür-Araz çayları boyunca, Yuxarı Mesopotamiya və Azərbaycan üzərindəki hökmranlıq haqlarından da imtina etdilər. Belə bir vəziyyətdə Atropatenanın (Təbriz-Ərdəbil) hökmdarı Ərsakidlərin tabeçiliyindən çıxaraq, Tiqranın süzereni oldu və Kür boyu yerləşən Albaniya (Şirvan) və İberiya (Gürcüstan) Artaksidlərin vassalına çevrildilər.

Selevkidlərin vəziyyəti də çox ağır idi. Yunanıstanın istilasına başlayan Selevkidlər Roma Respublikası ilə toqquşdu və bir sıra sarsıdıcı məğlubiyyətlə üzləşdi. Selevkidlərin ərazisi Siro-Finikiyaya qədər azaldı, çünki onların şərq torpaqları Böyük Ərsakidlərin mülkiyyətində idi. Selevkidlər o qədər zəifləmişdilər ki, e.ə. 83-cü ildə II Tiqrana təslim oldular, e.ə. 69-cu ildə isə II Tiqran Selevkidlər sülaləsinin sonuncu kraliçası I Selenanı edam etdi. E.ə. 64-cü ildə Selevkid dövlətinin keçmiş qərb hissəsi olan Suriya Romanın əyalətinə çevrildi.

Bu qısa tarixi xronikadan görünür ki, Böyük Ərsakidlərin qeyri-sabit vəziyyəti, Selevkidlərin tamamən zəifləməsi ona gətirib çıxardı ki, vaxtı ilə iki ən qüdrətli dövlət sayılan Selevkidlər və Ərsakidlər II Tiqranın taxta çıxma

dövründə onun 40 illik müstəqil hökmranlığına və ərazilərinin genişlənməsinə heç bir müqavimət göstərə bilmədilər və sadəcə II Tiqranın yüksəlişini seyr etməklə adi statist rolu ilə kifayətləndilər.

Lakin həmin 40 illik dövrün başlanması II Tiqranın Böyük Ərsaklar (Parfiya) imperiyasında illər boyu paytaxtı Həmədanda dustaq olması, girovda qalması, sonu isə Roma sərkərdarlarının ayaqlarını yalaması ilə nəticələnmişdir. Soruşulur ki, II Tiqranın "böyük" ləqəbi bundan ibarətdirmi?




Mənbə: *prof. Fəridə Məmmədovanın xəritələrindən*

- O da bir həqiqətdir ki, II Tiqranın dövrü, ondan əvvəl və sonrakı dövrlər Armeniya ərazisinə hökmranlıq etməkdə Böyük Ərsaklar və Roma imperiyalarının ciddi rəqabət və toqquşma dövrləri idi. Hələ Selevkid dövründə Ərsakların qüdrətli hökmdarı I Mitridad (e.ə. 160-139-cu illər) Baktriyanı və Sind sahillərini özünə tabe etdi, qərbdə isə Selevkidlərin birinci paytaxtının və Dəclə çayının yaxınlığında Demetrios II Nikatoru məğlub edib (e.ə. 140-cı il),

əsir götürərək Mesopatamiyanı tamamən ələ keçirdi. Selevkid Antioks VIII Sidetes də Zaqros dağları yaxınlığında Ərsak hökmdarı II Firaat (e.ə. 139-27-ci illər) tərəfindən öldürüldü. Təqdim etdiyimiz xronikadan bəlli olur ki, Artaksid sülaləsini himayədarı olan Selevkidlər Böyük Ərsakidlərin qüdrəti qarşısında yavaş-yavaş öz mövqelərini itirərək, zəifləyirdilər. II Mitridat həqiqi "Böyük" ləqəbi olan Böyük Ərsaklar dövlətinin başçısı IX Ərsak (e.ə. 123-88-ci illər, əcdadı I Mitridatın (VI Ərsak) Mesopotamiyanı fəth etməsinin ardı kimi) Azərbaycanı və İberiyanı ələ keçirib öz himayəsinə aldı, Armeniya ərazisinə daxil oldu, buranın bir sıra bölgələrini ələ keçirib, Artaksiyalıları sıxışdırıb, bu torpaqların sahiblərinə, yəni Böyük Ərsaklara (Parfiyaya) geri verilməsini tələb etdi. Buna qarşı çıxan Armeniya "çarı" Artaksiyalı I Artavazd (e.ə. 123-95-ci illər) savaşda məğlub edildi. Bununla da, Strabona görə, **"Armeniya" torpaqlarını fəth etdilər və Yustianın qeydlərinə əsasən, Böyük Ərsakların "*hakimiyyəti Qafqazdan Firata qədər oldu*". Artaksiyalı I Artavazd məğlubiyyətindən sonra Böyük Ərsakların hakimiyyətini tanımalı və öz oğlunu və varisi II Tiqranı Həmədan sarayına girov göndərməli oldu.** Həmin dövrlərdən başlayaraq, Böyük Ərsaklar Armeniya ərazisinə onlara tabe olan öz bəyliyi, "doğma torpaq" kimi baxmışlar. Odur ki, hay-erməni və alban xronikləri həmrəy olaraq, yazırlar ki, Ərsaklar Xorasandan gələrək, Araz-Kür-Çorux-Murat-Fərat boyu ərazilərdə hökmranlıq ediblər (M.Xorenski "Ermənistan tarixi" (VII ə.), Sebeos "İrakli tarixi" (661-ci il), Xovannes "Erməni tarixi", Taronlu Asolik "Cihan tarixi", Musa Kaqanqatlı "Alban tarixi").

- **Hay-erməni tarixşünaslığının digər yalanı** isə odur ki, II Tiqranın özünün və sələfləri olan Artaksiyalıların Böyük Ərsaklara qarşı xain çıxmalarına, e.ə. 66-ci ildən başlayaraq, II Tiqranın Roma vassallığına keçməsi və sonrakı illərdə ərazisini romalılara işğal etdirməsinə baxmayaraq, II Artaksiyaya (e.ə. 30-20-ci illər) siyasi sığınacaq verən və hərbi yardım göstərən yenə də Böyük Ərsaklar olmuş və onu taxta oturdan da elə onlar idi. Lakin armenistlər bunları Böyük Ərsakların öz bəyliyinə yardımı kimi deyil, romalıların gələcəkdə Böyük Ərsaklar ərazisini işğal etmək qorxusunun səbəbi kimi verirlər və hətta yazırlar

ki, II Artaşes başda olmaqla, birləşmiş "erməni-parfiyalı ordusu romalıları məğlub etdi".

Artaksidlər də Selevkidlər kimi rəsmi dil və yazı olaraq yunan əlifbasını və dilini qəbul etmişdilər. Kürdən tutmuş Dəclənin mənbəyinə qədər, Çorux çayından Qarabağa qədər uzanan Artaksidlər dövlətində Khalh (qədim Urartu dilləri), Saka (qədim türk dili) və İran (Muş-Malazgirt –"erməni" dili) danışıq dillərini təşkil edirdilər. Daha əvvəl də qeyd etdiyimiz kimi, Ksenofona (fars dilinə tərcümənin müəllifi) və "Anabasis"ə istinad edərkən (V, v, 34) baş verən epizoddan məlum olur ki, Muş-Malazgirt bölgəsində vergi əvəzinə fars şahı üçün at yetişdirirdilər. Qonşu Sofenanın satrapı və Zoriadrisin dostunun aramey dilindəki yazısından bəlli olur ki, bu bölgədə aramey dili geniş istifadə olunurdu. Bu yazı (kitabə) 1940-cı ildə Göycə gölünün yaxınlığında (bax: Grousset) aşkarlanmışdı. I Tiqrandan başlayaraq Eratoya qədər Artaksid hökmdarları sikkələri yunan dilində zərb edirdilər (bax: V.Langlois, "Numismatique de L'Armenie dans Antiquite"). Plutarxa əsasən, Tiqranokertdə Yunanıstandan gələn teatr artistləri çıxış edirdilər, Artavazd Artaksidin özü də Ellin mühitində tərbiyə almışdı (bax: J.Sandalgian). Pompeyin zəfər yürüşlərindən sonra isə (e.ə. 66-cı il) vaxtaşırı Romaya tabe olan Artaksidlər paytaxtları Artaksad şəhərində rəsmi dil kimi latıncanı istifadə etməyə başladılar. Kraliça Eratonun xaricində bütün Artaksid çarlarının adları fars mənşəli olub, bu isə Artaksidlərin torpaqlarında fars dilinin çox geniş yayılmasından xəbər verir (bax: J.Sandalgian). Artaksidlərin sarayında vəzifələr iyerarxiyası və vəzifəli şəxslərin adı İran (fars) nümunəsinə uyğunlaşdırılmışdı.

Artaksidlərin tabeçiliyində olan ərazilərin əhalisini əsasən xatt-xurrit kökündən olan keçmiş urartulular və onlara bağlı Kür-Araz boyları təşkil edirdi. Bunlardan başqa Sakların atlı axınına tab gətirməyən və məhsuldar torpaqları Sakların qışlaq və yaylaqlarının istifadəsinə tərk edib sıx meşəlik bölgələrinə köçən yerli knyazlıqlar və kimmer tayfaları da əhalinin bir hissəsi idi. Mənbələrdən məlumdur ki, Sakların qan qohumu olan və Kür-Araz sahilləri boyunca məskunlaşan Ərsaklardan başqa (F.Kırzıoğlu onlara "Eski oğuzlar" adlandırır) Sakların axınından sonra beş yüz il ərzində Şərqi Anadoluda və

Azərbaycanda hökmranlıq edən hər hansı bir köçəri tayfa mövcud olmayıb. Əski oğuzların miqrasiyası Mitridadın dövründə (e.ə. 123-88-ci illər) baş vermişdi. Beləliklə, müəyyən olunur ki, Artaksidlərin "Böyük Ermənistan" adlanan ərazisində hay-ermənilərə məskunlaşmaq üçün yer olmayıb. Ancaq mifoloji "Böyük Ermənistan" hoqqabazları tarixi tayfa və qəbilələrin nüfuzundan bəhrələnib, faktları təhrif edə biləcək istənilən saman çöpündən yapışmağa çalışırlar. Məsələn, digər mənbələrlə yanaşı onlar e.ə. 480-ci ildə yunan-pers döyüşü zamanı ermənilərin (erməni tarixçiləri burada hay-erməniləri nəzərdə tutur) friqlərin müstəmləkəsi qismində Darinin kürəkəni sərkərdə Artokhemesin ordusunda friqlərlə eyni silahla bərabər şəkildə xidmət etmələrinə dair Herodotun (VII, 73) məlumatını göstərirlər. Və ya Strabonun (XI, xiv, 12) əfsanəvi arqonavtlara həsr olunmuş, Yasonla birgə Fessaliyanın Armenos şəhərini tərk edən, Kolxida da, sonra isə Akilisendə (Ərzincanda) peydah olan, silahdaşlarını Syspiritide (Bayburt-İspirdə) yerləşdirən və Adiabenaya (Mosula) qədər əraziləri ələ keçirən Armenos adlı fessaliyalı qəhrəmana həsr olunan məlumatdan istifadə edirlər. Və ya ermənilərin friq mənşəli olduqlarına dair və erməni dilinin friq dilinə bənzəməsi haqqında yunan tarixçisi Evdoksun (e.ə. 370-ci il) məlumatına əsaslanaraq, hay erməniləri Qızıl-Irmağın üstündə və Yaşıl-Irmaq tayfalarının yaşadığı regionda yerləşən friqlərin bir boyu hesab edirlər. Ancaq onların fantaziyası bununla da kifayətlənmir, erməni qeydkeşləri daha da dərinə gedərək dünyaya çatdırırlar ki, e.ə. VII əsrdə və sonrakı dövrdə Fərat və Murat sahilləri boyunca məskunlaşan tayfalar, həmçinin Kür-Araz sahillərində yaşayanlar da "səssiz-küysüz" erməni-friqlər tərəfindən "erməniləşmişlər" (bax: Grousset). Ermənilərin iddiaları bir sıra səbəbə əsasən tamamən cəfəngiyyatdır. Birincisi ona görə ki, bu bölgədə yaşayan ermənilərin hay-ermənilərə heç bir aidiyyəti olmayıb – hay ermənilər yalnız XIV əsrdə "erməni" etnoniminin daşıyıcısına çevrilmişlər. İkincisi, F.Kırzıoğlu "Karsın tarixi" adlı fundamental monoqrafiyasında tamamən düzgün qeyd etdiyi kimi, erməni tarixinə dair araşdırmalar uydurmalara və əfsanələrə yox, o dövrdəki hadisələrin şahidi olan Ksenofona əsaslanmalıdır. Tarixi Ermənistanın Phasian Skytin, Sakasen,

Qoqaren, Taok, Karduk və s. kimi region və şəhərlər adları bu ərazidə Sak tayfalarının məskunlaşdığını sübut edərək hay-erməni saxtakarlığının üstündən qara bir xətt çəkir.

Antropoloji təhlillər də erməni saxtakarlığını ifşa edir. Belə ki, özlərini "erməni" adlandıran qriqorian mənşəli olanların qafa tası braxosefal olduğu halda, friqlər dolixosefal (uzunqafalı) sayılırlar.

Heç şübhə yox ki, coğrafi termin olan "Armenya" e.ə. 200-ci ildə Selevkid III Antioxun Araz boyu torpaqları fəth və pers mənşəli Artaksisi general qismində həmin ərazilərin satrapı təyin etməsindən daha əvvəl məlum idi. Yəni, özlərini hay adlandıran və Hayk adlı əcdad barədə əfsanələr uyduran "ermənilərlə" türklərin "erməni" adlandırdığı tayfalar və "Ermənistan" ölkəsi arasında heç bir əlaqə mövcud deyil. Professor N.Marrenin çox dəqiq bir qeydi var: *"...erməni kilsəsinin ortodoks kilsəsindən ayrılmasından əvvəl ermənilərin heç bir milli adı olmayıb"*.

- Hay-erməni saxtakarlıqları və uydurmaları təbii ki, zaman-zaman bir-birinə zidd çıxaraq, absurdlara çevrilir. Belə ki, hay-erməni tarixşünaslığının Artaksiyalıların süquta yetirilməsi dövrünə aid bir tezisi də ondan ibarətdir ki, b.e. 37-47-ci illərdə Böyük Ərsaklar (Parfiyalılar) Armeniyanı işğal etdilər. Digər tərəfdən onlar yazırlar ki, Armeniya qarşısında yeni "çar" sülaləsi "yaratmaq" ən vacib və tezliklə həllini gözləyən məsələ kimi dururdu. Halbuki, həqiqəti tarixi mənbələr (J.Sandalgian "Histore Documentaire de l'Armenie des Ages de Paganizme", II c., Rim, 1917; R.Grousset "Histoire de l'Armenie des Origines â 1071", PayolParis, 1947) başqa şəkildə yozurlar. Belə ki, XXII Ərsak (Val-Əps), 51-71-ci il, Parfiya (Böyük Ərsaklar) hökmdarı Kiçik Ərsaklar dövlətini Roma tabeçiliyindən alaraq, öz qardaşını Olaş / Ulaş (Tiridat) Armeniyanın taxtına oturtdu. Beləliklə, eramızın 63-cü ilindən başlayaraq ta 428-ci ilinə qədər (366-cı il) Kiçik Ərsaklar dövlətinin başında Tiridadatın nəsli durmuşdur. Böyük Ərsakın qardaşı Val-Ərsakın törəmələri və varisləri başçılıq etmişlər.

Bununla da Artaksiy sülaləsi bitmiş oldu və Kiçik Ərsaklar dövlətinin (Arşakuni) tarixi başlandı. Göstərilənlərdən Artaksiy sülaləsinin mənşəyi, himayədarlarının kim olması və nə dərəcədə Artaksiyalıların müstəqil erməni "çarlığ"ına rəhbər olması haqqında nəticə çıxarmaq çətin deyil.

**Böyük Ərsaklar (Parfiya) İmperiyası**




Mənbə: https://ru.wikipedia.org/wiki




Mənbə: http://zhurnal.lib.ru/d/dolgaja_g_a/turkmenistan6.shtml

### 4. Ərsakidlər (Parfiya) və Arşakuni sülaləsi.

- Tarixdən bəllidir ki, qüdrətli Parfiya dövlətini e.ə. 249-cu ildə Ərsaklar sülaləsi qurmuşdu, bu dövlət turanlılar dövləti idi. Bu dövlətçiliyin köklərində saklardan olan Dahalar (Dahe / Dae, Dahae) qəbilələrinin birləşməsindən çıxan Parn / Aparn boyu dururdu. Bunları qədim mənbələr və klassik əsərlər təsdiqləyir. Belə ki, hələ 2 min il öncə Pompey Troq yazırdı ki, skiflər qüdrətli Parfiya və Baktriya dövlətlərini yaratmış və hazırda Şərqdə hökmdarlıq edən Parflar keçmiş Skiflərin varisləridir və skif dilində "parfı" – "ayrılanlar" ("qopmuşlar") deməkdir. Həmin müəllif digər qədim yazar olan Yustinə istinadən göstərirdi ki, parflar Şimali Qafqazdakı və Azov dənizinin şimalında yerləşən skif xalqından qopan və qədim zamanlarda Xorezmin cənub hissəsində, sonralar isə onun dağlıq bölgələrində məskunlaşmış qəbilədir. Heç də təsadüfi deyil ki, Parflar çətin məqamlarda öz şimali dost qohumları olan Aspasiaklara arxalanırdılar. "Aspasiak"lar isə "As"lar və "Pasiak"lar (Peçeneqlər) deməkdir və bunların mənşəyinin turanlı (türk) olması hazırda şübhə yaratmır. Bunları Strabon da təsdiqləyir və Dahe / Dae qəbilələrini "Teke Taka" və ya "Aday / Adağ" kimi verərək, Saklar (skiflər) kökündən olmasına şübhə qoymur və heç də təsadüfi deyil ki, hazırda Xəzər və Aral dənizləri arasında yaşayan türkmənlər oxşar etnik ad daşıyır, çox güman ki, Teke Taka onların əcdadlarıdır. Parf-Arsaklıların türk mənşəli olması haqqında orta əsrlərdə ərəb alimləri (Cüvai – XIII ə., Əl-Müqribi – XIII ə., Əbülfəda – XIV ə.) də qeyd etmişlər. Və nəhayət, Parf-Arsaklıların turanlı olması mövqeyini tanınmış nisbətən müasir tarixçilər də bölüşürlər:

**Prof. J.Campbell** ("The Hittites", Toronto, New-York, 1890): *"Ərsaklar Xettlərə [Xattlara] qohum olan Turanlılardır və onların ən cəsur tayfasıdır".*

**Prof. L.Qumilev** (bir neçə kitabında): *"Parfiyalılar İran əhalisinə qarşı yad qəbilə idi, onlar Aral boyu çöllərin türkləridir".*

**Mommsen** ("Roma tarixi", 1887): *"II Ərsak – qüdrətli Turan sərkərdəsi, Turan Ərsaklarının hakimiyyətini quran parf "parn / part" qəbiləsindəndir".*

- Parfiya-Ərsaklar dövlətinin tarixindən bəllidir ki, bu dövlətin qüdrəti Roma imperiyasının qüdrətindən heç də az deyildi. VI Ərsak (I Mitridat, e.ə. 160-139-cu illər) Mesopotamiyanı fəth etdi, "çarlar çarı" adlandırılmağa başladı və onun sonrakı xələfi IX Ərsak (II Mitridat, "Böyük", e.ə. 123-88-ci illər) Armeniya ərazisini, Azərbaycanı (Cənub) və İberiyanı fəth etdi.

  Beləliklə, Ərsakların qərbdə 3 bəyliyi əmələ gəldi və bunlardan Armeniya ərazisində olan Kiçik Ərsaklar (hay-ermənilərin Arşakuni) çarlığı kimi tanındı (bax: A. De Markoff, "Monnales Arsakides, Subarsakides, Sassanides, etc. ..."). Heç də təsadüfi deyil ki, Yustinin yazdığına görə, "*Böyük Ərsakların ərazisi Qafqazdan Fərata qədər idi*".

  Yuxarıda Artaksiyalar sülaləsi barədə məlumat gətirərək, qeyd etmişdik ki, XXII Ərsak b.e. 63-cü ilində öz qardaşı Vələrsakı Armeniya taxtına oturdaraq, 428-ci ilə qədər "Arminiya" adlanan ərazidə hökmdarlığı Böyük Ər-saklar (Parfiya) dövlətinin başçısı Böyük Ərsak'ın qardaşı Vələrsak sülaləsinin törəmələri və varisləri başçılıq edib-lər.

- M.Xorenski (I, 8, 9; II, 1-4) Kiçik Ərsaklar dövlətinin yaranmasından bəhs edərək, Vələrsakı "Cəsur Ərsak", Bax I (Paxlavlardan, yəni Parfiyalı böyük Ərsaklardan olmasını), peyğəmbər İbrahimə və ikinci arvadı Xetturaya kökü gedib çatan sülalə başçısı kimi təsvir edir, alban tarixçisi M.Kalanqatlı isə Vələrsak tərəfindən Albaniyaya başçı kimi Sisak boyundan Aranın təyin edilməsi haqqında söhbət açır.

**Bir sözlə, tamamilə aydındır ki, hay-ermənilər adlandırılan Arşakuni sülaləsi Parfiya Ərsaklıların (Böyük Ərsaklılar) doğma kiçik qoludur.**

Tarixi sənədlərdən hay-erməni tarixşünaslığı Kiçik Ərsakların mənşəyi haqqında tamamilə aydın mənzərə olduğu halda, armenistlər bunu ermənisayağı yozurlar. Belə ki, Böyük Ərsakların rolunu kiçiltmək məqsədi ilə Roma sərkərdarı Qney Korbulonın rolu şişirdilir, Kiçik Ərsaklar sülaləsinin banisi I Tiridatın (Trdat) şəcərəsinə aid məlumatların ziddiyyətli olması, Arşakuni sülaləsinin tezliklə erməniləşib, hətta Böyük Ərsaklar dövlətinin Sasanilər tərəfindən süquta yetirilməsinə baxmayaraq, özünü qoruyub saxlaması və üstəlik, 216-217-ci illərdə Xosrovun ölümündən sonra taxta onun

oğlu II Tiridatın çıxması “erməni Arşakidlərdən” ilk Armeniyada böyüyən şəxsin və buna görə onun sələfinin xristianlığı qəbul etməsindən danışılır. Və belə nəticə çıxarılır ki, mənşəyinə baxmayaraq, ABŞ-nın milliyyətcə erməni tarixçisi N.Qarsoyana görə, Arşakuni hökmranlıq dövründə Armeniyada həddindən artıq orijinal və qabarıq erməni (hay-erməni) mahiyyətinin mövcudluğu üzə çıxmış olur. Bununla belə, ABŞ-nın digər politoloqu R.Panosyana istinadən qeyd edilir ki, III ə. sonunda Kiçik Ərsaklar (Arşakuni) sülaləsi və digər parfiyalı bəylər boyları artıq hay-erməni identikliyin daşımış və çox güman hay-erməni dilli olmuşlar.

Bu fantaziyalara və açıq yalanlara cavab olaraq, elə istinad olunan N.Qarsoyana müraciət edək. Kolumbiya universitetinin professoru N.Qarsoyan “Ermənistan IV əsrdə” (“Ermənistan” və “Sədaqət” terminlərinin dəqiqləşdirilməsi məsələsinə dair”) adlı və 1971-ci ildə Ermənistan EA “Xəbərləri”ndə çapdan çıxan məqaləsində bu Amerika tarixçisi IV əsr dövrünü təhlil edir və inandırıcı şəkildə göstərir ki, 1,5 min il ərzində Ermənistanda (Armeniyada) dövlətçilik olmamışdır, xristianlığın tarixi yalan və uydurmadır. Bütün qədim və sonrakı erməni salnamələri başqa xalqlara qarşı olan həsəd hissindən və digər xalqlar arasında fərqlənmək cəhdlərindən irəli gələn tarixi yalanlar əsasında qurulmuşdur. Sonra N.Qarsoyan yazır ki, qədim hay mənbələrində yaradılan tarixi mənzərə yalandır, *“...bizim üçün vacib yalnız odur ki, o, [tarixi mənzərə] Ermənistanın vahid, birləşmiş olması və pers aləminə yad olmadığı IV əsr həqiqətlərini təhrif edir”.*

Arşakunilər ölkəsini digər Armeniyaların başında duran, Firat satrapiyalarını idarə edən birgə dövlət kimi göstərmək həqiqətdən uzaqdır. Başqa cür desək, heç bir vahid Ermənistan olmamışdır, onu təşkil edən birləşmələr isə Cənubi Qafqazdan kənarda, müasir Türkiyənin, İranın və İraqın ərazilərində yerləşmiş, özü də qüdrətli Roma və İran imperiyalarının siyasi nüfuz dairəsində olmuşlar. Bu, birincisidir. İkincisi isə *“biz Ermənistanı [elmi mənbələrdə] dini və siyasi birlik, şimali Arşakid çarlığı ilə eyniləşdirilən dəyişməz məzmunlu toponim kimi təsəvvür edirik”* və bu da yanlışdır. Sonra isə həqiqi durum və xristianlığın qəbulu ilə bağlı maraqlı nəticələr çıxarır. Firat

boyu cənubi erməni satrapiyaların erməni tarixşünaslığında alçaldılmasının və əksinə, şimali Arşakuni “çarlığı”nın qabardılmasının yeganə səbəbi sonuncunun təntənəli “çarlıq” adlandırılmasıdır, halbuki, Qarsoyanın yazdığı kimi, Roma dünyasına daxil olan cənubi satrapiyaları vilayətlər qismində çıxış etsələr də, Arşakuni “çarlığı” ilə müqayisədə daha çox muxtariyyətə malik idilər. Burada Arşakuni “çarlığı”ndan fərqli olaraq, 185-ci ilə qədər Roma hərbi kontingentləri keşikdə dayanıb, ərazini qorumurdular, Arşakunilər kimi 358-ci ilə qədər Roma imperiyasına vassal vergiləri verilmirdi, əksinə, yerli satrapiyalara məxsus hərbi kontingentlərə başçılıq edirdilər, satrapiyalara başçılıq varisliklə keçirdi və vassal vergilərdən satrapiyalar azad olunmuşdu.

Və nəhayət, Romanın nüfuz dairəsinə cəlb edilmiş məhz erməni satraplıqları xristianlığı qəbul etmişlər, ona görə ki, bunu Roma imperatoru Konstantin qəbul etmişdir, həmin vaxt isə Arşakid “çarlığı”nda 301-ci ildə çarlıq feodalları və xalqı ilə birlikdə deyil, knyaz III Trdat xristianlığı yalnız özü qəbul edə bilərdi. Beləliklə, əslində nə Arşakunilərin tam mənada çarlığı vardı, nə vahid Armeniya. Burada xristianlığın qəbulu da uydurmadır. Odur ki, məqalə çıxandan bir gün sonra EA “Xəbərləri” bütün çapı ilə birlikdə “milli maraqlar” naminə ləğv edildi.

- Arşakid “çarlığı”nın ərazisində yalnız hay-ermənilərin yaşadıqları məsələyə toxunaraq, digər erməni alimi Sandalgiana müraciət edək. Bu tanınmış müəllifin də əsəri müxtəlif yollarla məhv edilməyə və unudulmağa məruz qalmışdır. Yosef (İosif) Sandalgianın kitabı “Histoire documentaire de L’Armenie des ages du paganisme (1410 av. – 305 apr. Y-C)” (“Ermənistanın bütpərəst dövrünün sənədli tarixi (e.ə. 1410 – e. 305-ci illər)”; “Документальная история Армении в языческую пору (1410 г. до н.э. – 305 г. н.э.)”) adlanır və Rome İmprimerie du Senat de Q.Bardi nəşriyyatında fransız dilində 1917-ci ildə dərc edilmişdir.

Baxmayaraq ki, müəllif Urartuları erməni (hay)ların əcdadları kimi qələmə verir (halbuki bunlar elmin nəticələri ilə ziddiyyətdədir), bu kitabda çox maraqlı faktlar və fikirlər işıq üzü görüb. İlk növbədə Ərməniyyə ərazisində yerləşmiş və burada yaşayan yadellilərdən (hayları Sandalgian bu ərazinin

avtoxtonları kimi təqdim edir) söhbət açaraq, 13 qəbilə (xalqların) adını sadalayır və bu **siyahıda əksəriyyəti türk, Turan mənşəli xalqlardır**. Elə bu səbəbdən tanınmış türk tarixçisi Fəxrəddin Kırzıoğlu yazır ki, "*ermənİ (haylara) Ərməniyyə torpağında yer qalmır*" *və 73 ildir ki, erməni şovinist dairələri bu kitabın mövcudluğunu tanımırlar və ...kitab əldə edildikdə onun nüsxələrini məhv etmişlər, biblioqrafiyalarda isə onun adını heç vaxt yada salmırlar*".

Sandalgian tərəfindən Armeniyada qeyd olunan yadelli xalqlar hansılardır? Bunları F.Kırzıoğlunun təhlilinə əsaslanaraq, göstərək:

- Qoqu (qoqular) – şimali Pitiaşkh-da yaşayan Sak başçısı Qoqunun nəsli; Qoqaren / Quqark vilayəti bunlardan adını götürüb;

- Sak (saklar), Gəncə-Qarabağ və adlarından əmələ gələn Sakasendə yaşayıb;

- Avors (Aorslar) Maku ətrafında yaşayıb, bunları "avar" kimi də tanıyırlar və Göyçə-göl / Alagöz (Araqas) ərazilərinə yayılmışdılar ("Avaran" adı onlardan qalandır);

- Siraklar (şiraklar) Siraken / Şüregel Arpa-çay üzərində mərkəzi Şiravakanda olanlardır;

- "Arevelyan" - mənasına görə Doğulular, Pasen-də yaşamışlar;

- Mərdlər – Ağrıdağ yaxınlarında və Kızıl-özən-Ağzı ətrafında yaşayıb (çox güman ki, Mardin / Merdin adı onlarla bağlıdır);

- Parflar, o cümlədən Ərsaklar boyu (Arşakuni) və Suren-Bahlav soyundan olan Aziz-Grigor (Qriqoris) nəsilləri;

- Kamsarakan bəyləri (prinslər) – Ərsakların Karen-Bahlav "budağından" olaraq, Həmədandan gələnlərdir və Karsın cənub və şərq vilayətlərində yerləşmişlər (310-722-ci illərdə Armeniyanın hökmdarları idilər);

- Orbelian bəyləri (prinslər) ordusu və xalqı Çenastandan (Şərqi Türkistan) Gürcüstana gələnlər, burada Baş komandan olmuşlar, Uç-Ok qolundan çıxanlardır və şahzadə xanədanı əldə edərək, Şimali Pitiaşkh-da yaşayıblar;

- Mamikonyan bəyləri (prinsləri) – Mamık və Qonak qardaşlarının nəslindəndilər, Çenastandan (Şərqi Türkistan) gəliblər, 316-582-ci illərdə Baş komandanlar, milli qəhrəmanlar, xanədan sahibləri, türk-hun mənşəli idilər;

- Vanandlar (Banandlılar) e.ə. 202-ci ildə Şimali Qafqazdan gələnlər, Kars düzənliyində yerləşənlər və adı buradan "Balanqlar" kimi qalanlardır, bulqarların bir qolu idilər;

- Bulqarlar – vanandlardan sonra Şimali Qafqazdan gələnlər və Bayburt-obada yerləşənlər (qədimdə "Pariadres" adlanan ərazi), bunların adından həmin torpaqlar Barkar / Balkar kimi tanınır.

- Baqratunilər, özlərini peyğəmbər Davudun kökündən sayanlar. Kiçik Ərsakların "takatir"ləri (tac qoyanlar) və Baş vəzirləri, sonralar bir qolu 899-1801-ci illərdə gürcü Abxaz-Kartli çarları idi, digər qolu (qriqorian) 885-1064-cü illərdə Ani və Karsın çarları olmuşdu.

**Beləliklə,**

**göründüyü kimi, əksəriyyəti turanlı olan Armeniya əhalisində haylara yer qalmır və bu bir dəfə də sübut edir ki, haylar və ermənilər sinonim adlar deyil. Hayları orta əsrlərdə, islamdan sonrakı dövrdə ermənlər adlandırmağa başlamışlar.**

**5.** Təqdimatın sonunda erməni tarixşünaslarının qərb tarixçilərinin ünvanına Ermənistan tarixinin saxtalaşdırılması ilə bağlı ittihamlarında və aldıqları cavablarda dayanmaq istəyirəm.

Erməni tarixşünası Armen Ayvazyan öz "Освещение истории Армении в Американской историографии (Критический обзор)" adlı əsərində bir sıra tanınmış qərb armenistlərini və qafqazşünasları, o cümlədən milliyyətcə erməni olanları, professorlar Ronald Qriqor Syuni, Robert Tompson, Ceyms Rassel, Riçard Ovanisyan və digərlərini Ermənistan tarixini düşünülmüş saxtakarlıqda ittiham edir. Əsas arqumenti isə "*Erməni yaylasının erməni xalqının formalaşma mənbəyi olmasının, müasir tarixi, elm tərəfindən əsaslandırılmış müddəanı şübhə altına almaq və əvəzində elm tərəfindən rədd*

*edilmiş ermənilərin gəlmələr olması versiyasının təqidlə reanimasiyasıdır*". Özü də Azərbaycan və Türkiyə alimlərinin təqdimatları əsasında. Qeyd olunur ki, "*erməni mədəniyyəti həmin qərb alimlərinin əsərlərində yalnız İran, Bizans, Assiriya, ərəb və digər mədəniyyətlərdən götürmələr ardıcıllığı şəklində göstərilir. Tarixi Armeniya qeyri-mərkəzləşmiş, zəif ölkə qismində təqdim edilir, İran və Roma imperiyalarının əlindəki oyuncağa çevrilir*". *Bununla da 5 min illik erməni tarixi alçaldılır, "halbuki, Hayasa, Urartu və Ervanduni çarlıqları zamanında erməni ordusunun sayı bir neçə on minlərlə olmuş, Artaşesid, Arşakuni və Baqratuni dövrlərində isə 100 mindən 200 minə qədər döyüşçü sayı ilə ölçülmüşdür*".

Bu müəlliflərin mövqeyi akademiklər Qraçik Simonyan, Manvel Zulalyan və digərləri tərəfindən dəstəklənmişdir. Buna cavab olaraq, 4-6 oktyabr 2003-cü ildə "Erməni tədqiqatlarının yenidən dərk edilməsi: keçmişi, bu günü və gələcəyi" adlı Harvard, Kembric, Massaçusets universitetlərindəki konfransında bir sıra əksəriyyəti milliyyətcə qərbdən olan alimlər hay-erməni şovinist və millətçi elminə tutarlı cavablar söyləmişlər. Belə ki, professorlar Bardakçiyan, Rassel, Robert Xyuseni qeyd etmişlər ki, Ermənistan Respublikasının ermənişünaslığında "ksenofobiya, ultramillətçiliklə səciyyələnən "elm" hakim meylə çevrilərək, özünü məhv etməyə yönəldib".

Professor Corc Burntyan isə qeyd etmişdi ki, "qərb alimlərinə qarşı ittihamların kökündə "erməni-amerika" alimləri Qarabağa, Kilikiyaya, Naxçıvana, Gəncəyə və Türkiyə Armeniyasına olan erməni iddialarına xələl gətirməklə, mədəni cəhətdən incə olan günləri sual altına qoymuş, o cümlədən Armeniya tərəfindən xristianlığı qəbul etmə tarixini". Robert Qriqor Syuninin isə fikrinə əsasən, "*Erməni alimləri millətçi təfəkkürü batağındadılar*".

Deyilənlərə nə isə əlavə etmək çətindir və ehtiyac da duyulmur.